8 dekabr 2021 №90 (1867) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## İşğaldan azad edilən bölgələrimizlə bərabər bütün Azərbaycan inkişaf edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfəri zamanı Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət evində yaradılan şəraitlə tanış olublar.




Məlumat verilib ki, 2020-ci ildən etibarən Qonaqkənd qəsəbəsində kompleks abadlıq və quruculuq işləri həyata keçirilib. Ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Mədəniyyət evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək əvəzində yenisi tikilib.

səh. 2

## İCESCO Baş Konfransının 14-cü sessiyası

### Sessiyada mədəniyyət nazirinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak edir

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) ali orqanı – Baş Konfransın üç ildən bir keçirilən sessiyasına Misir ev sahibliyi edir. 8-9 dekabr tarixlərində keçirilən İCESCO Baş Konfransının 14-cü sessiyasında mədəniyyət naziri Anar Kərimovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edir.




Baş Konfransın sessiyasından öncə, dekabrın 6-da Misirin paytaxtı Qahirədə İCESCO İcraiyyə Şurasının növbəti, 42-ci illik iclası keçirilib. 51 üzv ölkədən 49 nümayəndənin iştirak etdiyi tədbirdə Azərbaycanı Mədəniyyət Nazirliyi Beynəlxalq əlaqələr şöbəsinin müdiri Aqil Günəşov təmsil edib.

İclasın açılışında çıxış edən Misirin ali təhsil və elmi tədqiqatlar naziri Xalid Əbdel Ğaffar iştirakçıları salamlayıb və ölkəsinin ev sahibliyi edəcəyi İCESCO Baş Konfransının İslam dünyasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa töhfə olacağını vurğulayıb.

İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik təşkilatın 2021-ci ildə fəaliyyəti haqqında ətraflı məlumat verib. Vurğulayıb ki, COVİD-19 pandemiyası şəraitində yüksək texnologiyaların tətbiqi, innovativ təşəbbüslər, şəffaflıq, həmrəylik və tərəfdaşlıq İCESCO üçün prioritet vəzifələr olub.

Sonra İCESCO İcraiyyə Komitəsinə sədrlik edən İordaniya Mədəniyyət Nazirliyinin baş katibi Nəvvaf Acarmah təşkilatın maliyyə hesabatını və 2022-2023-cü illər üçün fəaliyyət planını təqdim edib. İclasda İCESCO Baş Konfransının 14-cü sessiyasının gündəliyi də müzakirə olunaraq təsdiq edilib.

Onu da qeyd edək ki, İCESCO Baş Konfransının sessiyası Misir Ərəb Respublikasının yeni inzibati paytaxtında – Qahirədən 40 km məsafədə salınan yeni şəhərdə keçirilir. 2015-ci ildə inşasına başlanan və ötən il açılışı olan yeni şəhər 22 milyonluq Qahirənin meqapolis yükünü azaldacaq.

Baş Konfransın sessiyasında İCESCO-nun 2019-2021-ci illərdə fəaliyyəti qiymətləndiriləcək. Tədbir çərçivəsində təhsil sahəsində yeni çağırışlar, kosmik tədqiqatlar mövzusunda xüsusi panellər də təşkil olunacaq. Sonda İCESCO Baş Konfransının 15-ci sessiyasının tarixi və keçiriləcəyi ölkə müəyyən ediləcək.

Xatırladaq ki, 2015-ci ilin noyabrında İCESCO Baş Konfransının 12-ci sessiyası və təşkilatın İcraiyyə Şurasının 36-cı iclası Bakıda keçirilmişdi.

## Beynəlxalq Ədalət Məhkəməsi Ermənistana qarşı iddia üzrə müvəqqəti qərar verib

Dekabrın 7-də Birləşmiş Millətlər Təşkilatının (BMT) ali məhkəmə orqanı olan Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın iddiası üzrə Ermənistana qarşı təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı müvəqqəti qərar verib.

Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviqini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məlumatda bildirilir ki, Beynəlxalq Ədalət Məhkəməsi Ermənistan tərəfinə azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tapşırıb. Bu qərar 2021-ci il oktyabrın 14-dən 19-dək davam edən dinləmələrdən sonra verilib.

Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistana qarşı verdiyi bu qərarı alqışlayır və Ermənistanı Məhkəmənin qərarını dərhal yerinə yetirməyə çağırır.

"Məhkəmənin Ermənistan tərəfindən tələb edilən müvəqqəti tədbirlər ilə bağlı qərarına gəldikdə, vurğulamaq istərdik ki, Ermənistan tərəfindən qaldırılan saxlanılan erməni əsilli şəxslərin dərhal azadlığa buraxılmasına, habelə Bakıdakı Qənimətlər Parkının dərhal bağlanmasına dair vəsatətlər Məhkəmə tərəfindən rədd edilib.

Azərbaycan Məhkəmənin irqi ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı qeyd etdiyi tədbirlərə əməl edəcək. Azərbaycan beynəlxalq konvensiyalarla üzərinə götürdüyü öhdəliklərə sadiqdir.

Azərbaycan beynəlxalq hüquq çərçivəsində bütün vətəndaşlarının hüquqlarını qorumağa və Ermənistanın beynəlxalq hüquq pozuntularına görə cavabdehlik daşımasını tələb etməyə davam edəcək", - deyə Azərbaycan XİN-in açıqlamasında qeyd olunur.

## Mədəniyyət sülh üçün, sülh də mədəniyyət üçün nə edə bilər?

Məlum olduğu kimi, bu ilin aprel ayında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən "Mədəniyyət naminə sülh" (Peace4Culture) adlı qlobal kampaniya irəli sürülüb.

Yeni platforma mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Ötən dövr ərzində bir sıra beynəlxalq təşkilat və ölkələrdən bu layihəyə dəstək ifadə olunub.

Dekabrın 2-də ADA Universitetində "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu ("Peace4Culture" Partners Forum) keçirildi.




BMT-nin Sivilizasiyalar Alyansı, İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı – İCESCO, ADA Universiteti və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkil etdiyi tədbirə dövlət rəsmiləri, bir sıra beynəlxalq təşkilatların və sülhün təşviqi üzrə ixtisaslaşmış institutların, diplomatik korpusun rəhbər şəxsləri və nümayəndələri qatılmışdı.

Forumun açılış mərasimində ADA Universitetinin prorektoru Vafa Kazdal rektor Hafiz Paşayevin adından iştirakçıları salamladı, belə bir tədbirə ev sahibliyi etməkdən qürur hissi keçirdiklərini bildirdi.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə "Mədəniyyət naminə sülh" kampaniyası haqqında məlumat verdi. Qeyd etdi ki, mədəniyyət üçün sülh vacib məfhumdur. Şöbə müdiri tədbirin proqramını diqqətə çatdırdıqdan sonra ilk plenar iclas başlandı.

davamı səh. 3-də

## "Bu əsərlərlə Azərbaycan və Yaxın Şərq miniatür sənətinin baharı başlanır"

Xəbər verdiyimiz kimi, Azərbaycan miniatür sənətinin nadir və nəfis nümunələri – "Vərqa və Gülşə" əlyazma kitabında yer alan illüstrasiyalar ilk dəfə ölkəmizdə toplu halında nəşr edilib. 71 illüstrasiyanın yer aldığı kitab-albomun tərtibçi müəllifi Əməkdar incəsənət xadimi, professor Çingiz Fərzəliyevdir. Kitab Mədəniyyət Nazirliyinin dəstəyi ilə Türkiyədə yüksək poliqrafik səviyyədə çap olunub. Nəşr ilk dəfə 6–10 oktyabrda keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oxuculara təqdim edilmişdi.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dekabrın 1-də Milli İncəsənət Muzeyində elm və sənət adamlarının iştirakı ilə kitab-albomun geniş təqdimatı keçirildi.



Milli İncəsənət Muzeyinin direktoru, professor Çingiz Fərzəliyev çıxış edərək muzeyin yeni istifadəyə verilən milli üslubda dizayn edilmiş hücrəsində ilk tədbirin məhz miniatür sənətinə həsr olunmasından məmnunluğunu ifadə etdi. Bildirdi ki, dünyanın ən mötəbər kitabxana və muzeylərində qorunan mədəni dəyərlərimizlə tanış olmaq imkanı, təəssüf ki, hər kəsə nəsib olmur. Bu zaman nəşr olunan kitab və albomlar köməyimizə gəlir.

Qeyd olundu ki, Azərbaycan miniatür məktəbinin nümayəndəsi Əbdülmömin Məhəmməd əl-Xoyinin "Vərqa və Gülşə" əsərinə çəkdiyi 71 miniatür İstanbulun Topqapı Sarayı Muzeyində qorunur. Bu miniatürlərin ilk dəfə toplu şəkildə nəşr edilməyi yeni kitab mədəniyyətimiz üçün töhfədir. Yaxın və Orta Şərq incəsənətinin ən qədim miniatürlərinə həsr olunan bu nəşr sayəsində XIII əsr Azərbaycan təsviri sənəti və onun sonrakı inkişafı haqqında dolğun təsəvvür əldə etmək imkanı yaranır.

davamı səh. 5-də



## Azərbaycan-Qətər dostluq abidəsi

Dekabrın 5-də Doha şəhərində Azərbaycan-Qətər dostluq əlaqələrini təcəssüm etdirən "Qardaşlıq" abidəsinin açılış mərasimi keçirilib.

Qətərin ən böyük mədəniyyət layihəsi hesab olunan "Katara" mədəniyyət şəhərciyinin çoxsaylı ziyarətçi qəbul edən guşəsində yerləşən abidə Azərbaycan Respublikasının Qətər Dövlətindəki Səfirliyinin təşəbbüsü ilə heykəltəraş Novruz Musayev tərəfindən hazırlanıb.

davamı səh. 3-də

## Şuşa Mərkəzi Kitabxanası Daşkənddəki "Turan" Kitabxanası ilə əməkdaşlıq edəcək

Xəbər verdiyimiz kimi, 1–3 dekabr tarixində Azərbaycanın və Özbəkistanın Mədəniyyət nazirliklərinin dəstəyi ilə Daşkənddə "Nizami Gəncəvi və Əlişir Nəvai mədəniyyət və ədəbiyyat günləri" keçirilib.

Silsilə tədbirlər çərçivəsində Özbəkistan paytaxtındakı "Turan" Kitabxana-İnformasiya Mərkəzi ilə Şuşa rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) arasında əməkdaşlığa dair memorandum imzalanıb. Əməkdaşlıq sənədi Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə ərsəyə gəlib.

Tədbir iştirakçıları əvvəlcə AMM-in təşkilatçılığı ilə "Turan" Kitabxanasında yaradılmış Qarabağ guşəsini ziyarət ediblər. Sonra tədbir kitabxananın oxu zalında davam edib.

Kitabxananın direktoru Dildora Abduazizova Azərbaycanla əlaqələrə xüsusi önəm verdiklərini, Daşkənddəki AMM ilə əməkdaşlıq nəticəsində birgə layihələrin həyata keçirildiyini qeyd edib. O, Azərbaycan mədəniyyətinin beşiyi kimi zəngin ənənələrə malik Şuşa şəhərinin Mərkəzi Kitabxanası ilə əməkdaşlığın onlar üçün əhəmiyyətli olduğunu bildirib.

davamı səh. 8-də

## "Titrəmə" və "Anya" mükafat qazanıb

Dekabrın 6-da Türkiyənin İstanbul şəhərində 9-cu "Beynəlxalq İpək Yolu Film Mükafatları"nın təqdimatı olub. Bu il mükafatlar üçün müxtəlif ölkələrdən rekord sayda – 3089 film-müraciət qəbul olunub. Mükafatlandırmanın final mərhələsinə Azərbaycandan 2 ekran əsəri – rejissor Amil Amalın "Titrəmə" qısametrajlı bədii və Lətif Lətifsoyun "Anya" qısametrajlı sənədli filmləri keçib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, "Türkiyə Sinema və Televizya Əsərləri Sahibləri Məslək Birliyi"nin (SETEM) təşkilatçılığı ilə keçirilən mükafatlandırma mərasimində qaliblər elan olunub.

Amil Amalın "Titrəmə" filmi beynəlxalq qısametrajlı bədii film kateqoriyasında "Ən yaxşı film" mükafatına layiq görülüb.

davamı səh. 2-də

"Yaradanlar" filmi nümayiş olundu




səh. 5

Abidələr, xatirə-memorial və memarlıq kompleksləri hansı meyarlara cavab verməlidir?

səh. 5



BMM-də Braziliya musiqisi axşamı

səh. 8

# Amerikalı qonaq "Mədəniyyət naminə sülh" təşəbbüsünü yüksək qiymətləndirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də ABŞ Etnik Anlaşma Fondunun təsisçisi və prezidenti Mark Şnayeri qəbul edib.

Görüşdə Azərbaycanda tarixən mövcud olan tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının ölkəmizdə bir ailə kimi mehribanlıq və əmin-amanlıq şəraitində yaşaması məmnunluqla vurğulanıb.

Digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına dövlət səviyyəsində yaradılan şərait və göstərilən diqqət, qayğı yüksək qiymətləndirilib, yəhudilərin ölkəmizin ictimai həyatında fəal iştirakı qeyd edilib.

Söhbət zamanı Bakıda keçirilən və Mark Şnayerin iştirak etdiyi "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi növbəti töhfə kimi dəyərləndirilib.

# Mədəniyyət naziri Misir Milli Muzeyinin direktoru ilə görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Misir Ərəb Respublikasında səfərdədir. Nazir dekabrın 8-də Misirin yeni inzibati paytaxtında işə başlayacaq İCESCO Baş Konfransının 14-cü sessiyasında iştirak edəcək.



Anar Kərimov səfər çərçivəsində Misir Milli Muzeyinin direktoru Sabah Abdel Razeklə görüşüb. Nazir muzeylə tanış olub.

Anar Kərimova Misirin qədim tarixini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib.

Azərbaycan nümayəndə heyətini səmimi salamlayan muzey rəhbəri birgə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Dəvət üçün təşəkkürünü bildirən Anar Kərimov Azərbaycan Milli İncəsənət Muzeyində qədim Misirə aid 51 eksponatın həssaslıqla qorunduğunu diqqətə çatdırıb. Həmin sənət nümunələrinin Misir Milli Muzeyində onlayn təqdimatının böyük marağa səbəb olacağı qeyd olunub. Bəşəriyyətin qədim mədəniyyətinə sahib, sivilizasiyanın beşiyi sayılan Misirin mədəniyyət sahəsində təcrübəsindən yararlanmağın faydasını vurğulayan nazir bu istiqamətdə ikitərəfli görüşlərin, birgə layihələrin vacibliyini qeyd edib.

# "Nizami Gəncəvi əsərləri rəsmlərin dili ilə"

## Respublika Uşaq Kitabxanasının keçirdiyi festival çərçivəsində sərgi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 6–10 dekabr tarixində dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Dünyada söz olmasa, nəyə gərək düşüncə" adlı festival keçirir. Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən festivalın proqramına rəsm günü, şeir günü, musiqi günü və başqa tədbirlər daxildir.




Festivalın ilk tədbiri Xətai Sənət Mərkəzində təşkil olunan "Nizami Gəncəvi əsərləri rəsmlərin dili ilə" adlı rəsm günü olub. Mərkəzin ekspozisiya zalında sərgi açılıb.

Kitabxanadan verilən məlumata görə, sərgidə 1, 3, 5 saylı Uşaq-gənclər yaradıcılıq mərkəzlərinin, "Tamara ART", "Günəş ART", "Palitra ART" studiyaların dərnək üzvlərinin, paytaxtdakı 14, 91, 211, 179, 227, 238, 167, 229, 272, 201 nömrəli orta məktəblərin, Bakı Avropa, İdrak, Zəngi, Türk-Ankara, 16 nömrəli texniki humanitar liseylərin, XXI əsr məktəbin, İncəsənət Gimnaziyası şagirdlərinin, eləcə də Kəlbəcər, Qax, Balakən, Zaqatala, Qusar MKS oxucularının 160-a yaxın illüstrasiya və rəsmi nümayiş olunub.

Tədbirdə iştirak edən Mədəniyyət Nazirliyi, Ombudsman Aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gəncliyə Yardım Fondunun nümayəndələri, Xalq rəssamı Arif Hüseynov, sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, qrafik rəssam İlqar Mehdiyev uşaqların Nizami əsərlərinə çəkdikləri rəsmləri yüksək qiymətləndirərək onlara gələcək işlərində uğurlar diləyiblər.

Tədbir zamanı R.Hacıyev adına 15 nömrəli onbirillik, Leopold və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəblərinin şagirdləri şairin sözlərinə bəstələnmiş mahnıları ifa ediblər.

Sonda festival iştirakçıları diplom və təşəkkürnamələrlə təltif olunublar.

Qeyd edək ki, dekabrın 7-də Gəncliyə Yardım Fondunda festivalın növbəti tədbiri – "Şairlər ustadı böyük Nizami" adlı şeir günü keçirilib.

Festivalın əsas məqsədi qüdrətli söz və fikir ustadı Nizami Gəncəvinin insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığını təbliğ etmək, həmçinin mütəfəkkir şairin sənətini gələcək nəsillərə çatdırmaqdır.

# İşğaldan azad edilən bölgələrimizlə bərabər bütün Azərbaycan inkişaf edəcək

## "Qarabağ, Zəngəzur bölgəsinə bəlkə də 10 dəfədən çox getmişəm. Eyni zamanda Azərbaycanın qalan yerlərini də yaddan çıxarmıram"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfər ediblər.

Prezident, birinci xanım və qızları əvvəlcə ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Dövlət başçısı və birinci xanım Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə, həmçinin Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəblə tanış olublar.

Həmin gün "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışı da olub.

"ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev müəssisədə görülən işlər barədə məlumat verib. Bildirilib ki, "ABAD Factory" bir neçə ildir qubalı mikro və kiçik sahibkarlara qida istehsalı müəssisəsi kimi tanış idisə, artıq həm də qablaşdırma vasitələrinin istehsalı müəssisəsi kimi onlara yardımçı olacaq. Burada kartondan müxtəlif qablaşdırma vasitələri, kağız və etiketlərin istehsalı, promo məhsulların hazırlanması, eyni zamanda, tullantı kağızların preslənməsi nəzərdə tutulur.

Xatırladaq ki, ABAD – "Ailə Biznesinə Asan Dəstək" publik hüquqi şəxs ölkə başçısının 2016-cı ildə imzaladığı fərmanla yaradılıb. Təkcə cari ilin 10 ayının yekununda "ABAD" 500 ailəyə dəstək göstərib. Qubada yeni müəssisənin açılışı ilə ilkin mərhələdə 20, sonrakı mərhələdə isə 50 nəfərin işlə təminatı reallaşacaq.

Daha sonra Quba-Qonaqkənd avtomobil yolunun açılışı olub. 46 kilometrlik yolun istismara verilməsi ilə ətraf kəndlər də daxil olmaqla ümumilikdə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunacaq.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Quba rayonunun Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət evində yaradılan şəraitlə də tanış olublar. Məlumat verilib ki, 2020-ci ildən etibarən Qonaqkənd qəsəbəsində kompleks abadlıq və quruculuq işləri həyata keçirilib.



Ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Mədəniyyət evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək əvəzində yenisi tikilib.



Mədəniyyət evi ilə tanışlıqdan sonra dövlət başçısı qəsəbə sakinləri ilə söhbət edib.

Milli Məclisin deputatı Vahid Əhmədov, sakinlər dövlətimizin başçısına Quba-Qonaqkənd avtomobil yolunun çəkilməsi ilə bağlı minnətdarlıqlarını bildiriblər, həmçinin ildönümünü qeyd etdiyimiz Vətən müharibəsində Qələbə münasibətilə bir daha dövlət başçısına təbriklərini, xoş arzularını çatdırıblar.

Qonaqkənd qəsəbəsinə ilk dəfə gəldiyini deyən Prezident İlham Əliyev bir müddət əvvəl burada yol probleminin həlli ilə bağlı müvafiq qurumlara tapşırıq verdiyini və artıq yolun hazır olduğunu deyib: "Quba rayonunda əhəmiyyət baxımından bir Xınalıq yoludur, bir də Qonaqkənd yolu idi. Xınalıq yolu da keçilməz bir yol idi, oraya da gedib çatmaq üçün saatlarla vaxt lazım idi və qış aylarında, ümumiyyətlə, təcrid vəziyyətində idi. Qonaqkənd də, həmçinin. Vahid müəllim də, Quba ictimaiyyəti də dəfələrlə bu məsələni qaldırmışdı. Nəhayət, biz buna nail olduq".

Prezident qeyd edib ki, bundan sonra buraya turistlər də daha çox gələcək: "Bura çox gözəl turizm zonasıdır. Bu yol olmadığı üçün buraya turist də gəlmirdi. Əminəm ki, indi bu gözəl mənzərəli yerlərdə çox gözəl istirahət zonaları, hotellər, ictimai yerlər yaradılacaq. Yəni, Qubanın bu hissəsi canlanacaq".

Dövlət başçısı vurğulayıb ki, Vətən müharibəsində tarixi Zəfərdən sonra işğaldan azad edilmiş bölgələrimizdə – həm Qarabağda, həm də Zəngəzurda quruculuq işləri aparılır. Eyni zamanda digər bölgələrimizin də inkişafı diqqət mərkəzindədir: "Cəmi bir il keçib üstündən, görün nə qədər böyük işlər görmüşük. Mən Qarabağ, Zəngəzur bölgəsinə bəlkə də 10 dəfədən çox getmişəm. Amma, eyni zamanda, Azərbaycanın qalan yerlərini də yaddan çıxarmıram".

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qonaqkənd sakinləri ilə birlikdə ulu öndər Heydər Əliyevin qəsəbənin mərkəzində ucaldılan abidəsinin önünə gül dəstəsi qoyublar.

Sonra xatirə şəkli çəkdirilib.

# Ölkəmiz UNESCO-nun daha bir komitəsinə üzv seçilib

## Dövlət Xidmətinin rəisi Parisdə keçirilən iclaslarda iştirak edib

Xəbər verildiyi kimi, Azərbaycan UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinə üzv seçilib. Bununla bağlı səsvermə 30 noyabr – 1 dekabr tarixlərində Parisdə, UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi üzrə 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin 9-cu iclası çərçivəsində keçirilib.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, iclasda ölkəmizin də namizədliyi irəli sürülüb və səsvermədə iştirak edən dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə Azərbaycan Respublikası növbəti 4 il müddətinə Komitəyə üzv seçilib.

Xatırladaq ki, noyabrın 17-də, UNESCO Baş Konfransının 41-ci sessiyası gedişində Azərbaycan Respublikası 2022-2025-ci illər üzrə təşkilatın İcraiyyə Şurasına üzv seçilib.

Hər iki seçkidə əldə edilmiş nailiyyət Azərbaycanın UNESCO dəyərlərinə sadiqliyinin beynəlxalq ictimaiyyət tərəfindən təqdir edilməsinin göstəricisidir.

Azərbaycan həmçinin UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin (2018-2022) və Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanın Hökumətlərarası Komitəsinin (2019-2023) üzvüdür.

***

Qeyd edək ki, UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi üzrə 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin iclasında Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərlinin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib.

Dövlət Xidmətindən bildirilib ki, noyabrın 29-dan dekabrın 3-dək davam edən səfər zamanı nümayəndə heyəti, həmçinin UNESCO-nun "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına tərəf dövlətlərin 14-cü iclasında iştirak edib.



Konvensiyanın icrası ilə bağlı hesabatın müzakirəsi zamanı Dövlət Xidmətinin rəisi Azad Cəfərli çıxış edib. O, Konvensiyanın vacibliyindən danışaraq, işğaldan azad olunmuş ərazilərimizdəki abidələrin vəziyyəti ilə bağlı məlumat verib, bu istiqamətdə bölgəyə UNESCO texniki missiyasının göndərilməsinin önəmini qeyd edib.

İclas zamanı Ermənistan nümayəndə heyətinin təxribat xarakterli çıxışlarına adekvat cavablar verilib və erməni tərəfin iclası siyasiləşdirməsinin yolverilməzliyi diqqətə çatdırılıb.

Azərbaycan nümayəndə heyəti 2-3 dekabr tarixində UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması üzrə Komitənin 16-cı iclasında da iştirak edib.

Komitənin gündəliyi üzrə Azərbaycan tərəfinin təqdim etdiyi milli hesabatın müzakirəsi zamanı Dövlət Xidmətinin rəisi çıxış edərək bildirib ki, hesabatda işğaldan azad olunmuş ərazilərdə yerləşən milli irsimizlə bağlı məqamlar əksini tapıb. Vurğulanıb ki, hazırda ölkəmizin işğaldan azad olunmuş ərazilərində işğal zamanı dağıdılmış tarix və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, və bərpası üzrə tədbirlər görülür. Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən monitorinq prosesinə əsas maneə təhlükəsizlik məsələsi, işğaldan azad olunmuş ərazilərdə, o cümlədən abidələrin ətrafına yerləşdirilmiş müxtəlif tipli, həmçinin piyadalar əleyhinə minalardır.

Qeyd olunub ki, Azərbaycan tərəfi işğaldan azad olunmuş ərazilərdə abidələrin qorunması ilə əlaqədar mütəşəkkil və sistemli fəaliyyət həyata keçirir. Ölkəmiz postmüharibə dövründə tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı öz nümunəvi təcrübəsini digər dövlətlərlə də paylaşmağa hazırdır.

Komitə iclası zamanı abidələrin qorunması üzrə monitorinqin və nəzarətin həyata keçirilməsi üzrə alt komitənin mandatının uzadılması qərara alınıb və Azərbaycan tərəfi də bu qərara öz dəstəyini verib.

# "Titrəmə" və "Anya" mükafat qazanıb

***əvvəli səh. 1-də***

Film bir ayağını mina partlayışı zamanı itirmiş əsgər haqqındadır. Ayağını itirən əsgər bədəninin bir parçasını axtarmaq üçün böyük bir yol keçməli olur...

Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm"də istehsal olunan filmin ssenari müəllifləri Amil Amal, Aqşin Evrən, Ayşad Səfərəliyev, təsvir rejissoru Əli Sultanov, bədii rəhbəri və prodüseri Cəmil Quliyevdir.




Əsas rolları Bəhruz Vaqifoğlu və İlqar Cahangirli canlandırıb.

Lətif Lətifsoyun "Anya" filmi isə beynəlxalq qısametrajlı sənədli film kateqoriyasında "Münsiflər heyətinin xüsusi mükafatı"na layiq görülüb.

Filmdə vaxtilə kənddə rus dili və ədəbiyyatı müəllimi olan yaşlı Anyanın həyatından epizodlar təqdim edilir, onun düşüncə və xəyallarından bəhs olunur. Film bundan əvvəl 38-ci Fəcr Beynəlxalq Film Festivalının "Eastern Vista" bölməsində iştirak edib.

# Mədəniyyət sülh üçün, sülh də mədəniyyət üçün nə edə bilər?

## "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu keçirilib

əvvəli səh. 1-də

**Regionda mədəni tərəfdaşlıq da vacibdir**

"Yalnız mədəniyyətin sülh üçün nə edə biləcəyini deyil, sülhün də mədəniyyət üçün nə edə biləcəyini düşünək" adlı birinci plenar sessiya Mədəniyyət Nazirliyi Aparatının rəhbəri, "Mədəniyyət naminə sülh" qlobal kampaniyası İşçi Qrupunun rəhbəri Vasif Eyvazzadənin moderatorluğu ilə gerçəkləşdi.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək bildirdi ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər Cənubi Qafqaz üçün böyük imkanlar yaratdı: "Məqsədimiz dayanıqlı sülhü təşviq etməkdir. Təkcə ticarət yolları deyil, mədəni tərəfdaşlıq da əsasdır. Azərbaycanın işğal altında olan ərazilərində mədəni irsimiz məhv edilib. 30 il müddətində biz BMT və UNESCO-nu bu işə cəlb etmişdik və bu müddətdə UNESCO-nun bu ərazilərə səfərini gözlədik ki, bu təşkilat mədəni irsimizə qarşı törədilən vəhşiliyi beynəlxalq aləmə göstərsin. Bu gün Azərbaycan UNESCO İcraiyyə Şurasına seçilməklə bir daha etibarını göstərdi".

Hikmət Hacıyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etdiyinə görə İCESCO-nun Baş direktoruna təşəkkürünü bildirdi: "Biz Azərbaycanın əsrlərlə yaratdığı digər xalqlara hörmət təcrübəsini paylaşmaq istəyirik. Bu mənada "Mədəniyyət naminə sülh" platforması çox vacib əhəmiyyət daşıyır".

Sonra BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinosun videomüraciəti dinlənildi. Ali nümayəndə Sivilizasiyalar Alyansı ilə Azərbaycanın əlaqələri haqqında fikirlərini bölüşdü. Qeyd etdi ki, Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü alyansın missiyasına uyğundur: "Bu təşəbbüs davamlı sülh üçün vacib elementləri özündə cəm edir. Müxtəlif mədəniyyətlər arasında anlaşma yaradaraq sülhü təbliğ edir. Bu təşəbbüsü həyata keçirmək üçün əl-ələ verərək çalışmalıyıq".

**"Mədəniyyətin sülhü təşviq edə biləcəyinə inanırıq"**

Mədəniyyət naziri Anar Kərimov qonaqları salamlayaraq nazirliyin "Mədəniyyət naminə sülh" təşəbbüsünü doğuran əsaslardan söz açdı: "Biz işğaldan azad olunmuş ərazilərimizə gedən zaman Ermənistan tərəfindən






sosial infrastruktura, mədəni mirasımıza qarşı həyata keçirilən vandalizm və talançılığın miqyasını tam şəkildə görə bildik. Başa düşdük ki, bu dağıdılmış infrastrukturu bərpa etmək üçün bizə dayanıqlı sülh lazımdır. Bu səbəbdən də Mədəniyyət Nazirliyi sülhü təşviq etmək üçün yeni təşəbbüslə çıxış etdi".

Sülh və mədəniyyət arasında mühüm qarşılıqlı əlaqənin olduğunu bildirən Anar Kərimov qeyd etdi ki, mədəniyyətin yenidən çiçəklənməsi üçün sülh vacib amildir: "Burada həm də münasibətlərin dirçəlişindən söhbət gedir. İkinci vacib element mədəniyyətin rolunu vurğulamaqdır. Üçüncü element budur ki, Azərbaycan bütün problemlərə rəğmən etnik və mədəni təmizlənməyə baxmayaraq həl də mədəniyyətin sülhü təşviq edə biləcəyinə inanır. Bu təşəbbüs bölgədə dayanıqlı sülhə yol aça bilər. Azərbaycan uzunmüddətli sülh proqramının qurulmasına cəhd göstərir. 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bünövrəsi qoyulan "Bakı Prosesi" bütün dünyada dialoqu təşviq etmək məqsədi daşıyırdı. Bu təşəbbüs qlobal platformaya çevrilə bildi".

Nazir qeyd etdi ki, "Mədəniyyət naminə sülh" platforması da bəşəriyyət üçün yeni imkanlar yarada bilər: "Bu təşəbbüsün nəticə verməsi üçün praktiki fəaliyyətlər haqqında düşünürük və artıq işlər tədbirlər planı hazırlanır. 2022–2027-ci illər üçün nəzərdə tutulan tədbirlər planında 6 istiqamət üzrə fəaliyyət nəzərdə tutulub. Mədəniyyət dili sülhə yol açmaq üçün ən gözəl ideyadır və biz bu imkanlardan istifadə edəcəyik. Beynəlxalq tərəfdaşları bu təşəbbüsləri dəstəkləməyə çağırır və forumun işinə uğurlar arzulayıram".

***

Foruma videoformatda qoşulan İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik qlobal təşəbbüsə görə Azərbaycan Hökumətinə minnətdarlığını bildirdi. Qeyd etdi ki, dünyaya sülh toxumları əkilməlidir və mədəniyyətin inkişafı bundan asılıdır: "Azərbaycan Mədəniyyət Nazirliyinin bu ideyası sülh üçün yeni davranışları təşviq edir və biz bu təşəbbüsü dəstəkləyirik. Sülhü qorumaq missiyası çox vacibdir. Mədəniyyət anlamı isə bütün insanları bir araya gətirəcək məfhumdur. İnanıram ki, Azərbaycan bu təşəbbüslə qlobal sülhə öz töhfələrini verəcək".

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Türk dünyası mədəniyyətinin təbliği və təşviqinin əhəmiyyətini qeyd etdi, fondun bu istiqamətdə həyata keçirdiyi layihələrdən söz açdı.

Etnik Anlaşma Fondunun (ABŞ) prezidenti Ravin Mark Şnayer Prezident İlham Əliyevin multikultural dəyərlərə diqqətini xüsusi vurğuladı. Bildirdi ki, Azərbaycanın uğurları onları çox sevindirir: "Müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin bu ölkədə sülh şəraitində yaşaması gözəl nümunədir və biz bu şəraitə görə minnətdarlığımızı bildiririk".

KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi (Avstraliya) baş katibinin müavini Elham Əlşeyxin forumun təşkilatçılarına minnətdarlığını bildirərək buradakı müzakirələrin regionda sülhü bərqərar edəcəyinə ümidvar olduğunu vurğuladı. O, rəhbəri olduğu mərkəzin bu təşəbbüsü dəstəklədiyini qeyd etdi.

Məşhur fotojurnalist Rza Diqqəti (Fransa) bildirdi ki, dünyada baş verən müharibə, vəhşilik və qətlləri çəkib ictimaiyyətə nümayiş etdirmək insanları sülhə təşviq edə bilər: "İnsanlara sülhü bəzən şəkil dili ilə də təşviq etmək lazım gəlir. 1992-ci ildə Ermənistanın Xocalıda törətdiyi soyqırımı və ötən il Gəncəyə raket hücumları zamanı çəkdiyim kadrların beynəlxalq aləmdə nümayişi başəriyyəti sülhə səsləməklə bərabər, həqiqətləri bəyan etmək baxımından əhəmiyyətli idi".

Panel iclasın sonunda çıxışçılar onlara ünvanlanan sualları cavablandırdılar.

**Beynəlxalq sülh sistemini necə gücləndirə bilərik?**

"Sülh Əlaqələndiriciləri" təşkilatının təsisçisi və baş icraçı direktoru Jan Kristof Basın moderatorluğu ilə keçən plenar sessiya "Sülhsevər cəmiyyətləri və beynəlxalq sülh sistemini dayanıqlı şəkildə necə gücləndirə bilərik?" mövzusuna həsr olunmuşdu.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov nazir Ceyhun Bayramovun tədbir iştirakçılarına salamlarını çatdırdı. Qeyd etdi ki, ölkəmizdə yüz illərdir əmin-amanlıq şəraitində yaşayan milli azlıqlar var. 2008-ci ildən Prezident İlham Əliyevin təşəbbüsü ilə "Bakı Prosesi"nə başlanıldı. Bu platforma əsasında müxtəliflik və tolerantlıq təbliğ olunur. 2017-ci ildə BMT-nin Baş katibi "Bakı Prosesi"ni dünyada bu məqsədlə yaradılmış əsas platforma kimi dəyərləndirib. Son 12 il ərzində "Bakı Prosesi" çərçivəsində 300-ə yaxın tədbir keçirilib. Bununla bərabər, hər iki ildən bir Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Qlobal Bakı Forumu da təşkil edilir. Bu il ölkəmizdə dahi Azərbaycan şairi Nizami Gəncəvin 880 illiyi qeyd edilib. Nizaminin əsərlərində sülh və tolerantlıq kimi ideyalar tərənnüm olunur: "Biz ölkə olaraq özümüzü güclü, qüdrətli görürük. Bu ideyaları daima səsləndiririk. Sülh özü ilkin şərtdir. Bütün mədəniyyətlərin irəli getməsi üçün əsasdır".

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Tolerantlıq Nazirliyinin baş direktoru Afra Məhəmməd əl-Sabri dedi ki, dinlərarası dialoq bütün dünyada cəmiyyətləri bir araya gətirə bilər: "Biz mədəni müxtəlifliyə töhfə verən ölkə olaraq bir-birimizin təcrübəsindən yararlanaraq bütün dünyaya öz ideyalarımızı bəyan etməliyik".

İstanbul Beynəlxalq Sivilizasiyalar Araşdırmaları Mərkəzinin sədri Bekir Karlığa dedi ki, bu gün dünyamız böyük aşınmalar yaşayır. Bunun səbəblərini bəziləri siyasət və iqtisadiyyatda arayır. Amma əsas səbəb mədəniyyətdir. Mədəniyyət tamlıqdır. Burada düşüncə, din, sənət, hüquq, ədəbiyyat, dövlət sistemi və birgəyaşayış qaydaları var. Birgəyaşayış mədəniyyətin önəmli sahəsidir. Multikultural dəyərlərə sahib çıxmaqla sülhə nail olmaq mümkündür.

"Təhsil vasitəsilə insanlar üçün yüksək imkanlar" beynəlxalq ictimai təşkilatının baş icraçı direktoru Xavier Nunez Gonzalez, Dünya Kilsələr Şurası Beynəlxalq əlaqələr komissiyasının direktoru Piter Prov, Böyük Britaniyanın Koventri Universitetində Sülh, Etimad və Sosial Münasibətlər İnstitutunun qurucusu və rəhbəri, professor Mayk Hardi (videoformatla) qlobal təşəbbüsü təqdirlə qarşıladıqlarını bildirdilər.

**Çoxtərəfli əməkdaşlığın qurulması**

"Sülh və təhlükəsizlik çağırışları: çoxtərəfli əməkdaşlığın qurulması" mövzusunda üçüncü paneldə moderator – "Ələddin layihəsi"nin icraçı direktoru Abe Radkin forumun məhsuldar olduğunu diqqətə çatdırdı. Vurğuladı ki, Azərbaycanın Qələbəsi regionda yaşayışa yeni dinamizm qatıb. Bu səbəbdən sülhə çağırış olan "Mədəniyyət naminə sülh" layihəsi alqışlanası təşəbbüsdür.

Sülh Məkanları Avropa Şəbəkəsinin prezidenti Eduardo Basso Avropada çoxtərəfli tərəfdaşlıq nümunələrindən bəhs etdi, qlobal layihənin əhəmiyyətini yüksək qiymətləndirdi.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə heyətinin sədri Fərid Şəfiyev diqqətə çatdırdı ki, mədəni irs nümunələrinin dağıdılması, talan edilməsi beynəlxalq hüquqa ziddir. Fevral ayında İrəvanda Azərbaycan xalçalarının erməni nümunələri kimi sərgilənməsi beynəlxalq hüquqa hörmətsizlikdir: "Düşünürük ki, bu platformanın səmərəli olması üçün bərabər yanaşma gərəkdir".

Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini Sultanbay Rayev, BMT-nin Sülh Universitetində Beynəlxalq hüquq departamentinin direktoru Mihir Kanade, Asiya Əməkdaşlıq Dialoqunun Baş katibi Pornçai Danvivatana da qlobal kampaniyanın əhəmiyyəti, dayanıqlı inkişaf üçün sülhün rolu barədə danışdılar.

Son panel iclasda çıxış edən nazir Anar Kərimov forum iştirakçılarına təşəkkürünü bildirdi: "Mədəniyyət naminə sülh" təşəbbüsü ilə bağlı 20-dən çox məruzə dinlənildi. Forumda "Biz sülhü təşviq etmək üçün nələr etməliyik" sualına cavab aldıq. Bizim ümumi rifahımız sülhdən keçir. Məmnunluqla qeyd etmək istərdim ki, Azərbaycan sülh naminə mədəniyyət prosesini özü beynəlxalq təşəbbüs olaraq təbliğ edir. Bizim bu yeni konsepsiyamız beynəlxalq aləmdə tanınıb daha da geniş dəstək alacaq. Sonda bir daha bütün iştirakçılara təşəkkür edirəm və əminliyimi bildirirəm ki, bu, hələ yolun başlanğıcıdır və konkret nəticələrə verəcək. Gələn il Bakıda növbəti Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək və ümid edirəm ki, bu proses artıq gələcək fəaliyyətlər üçün bir zəmin yaradır".

Bununla da "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlar Forumu öz işini başa vurdu.

***

Qeyd edək ki, dekabrın 3-də Tərəfdaşlar Forumu iştirakçılarının Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəri təşkil olunub. Xarici nümayəndələr Şuşanın tarixi-mədəni irsi, erməni işğalı dövründə dağıdılıb talan edilmiş tikililər, vandalizmə məruz qalmış abidələr, eləcə də Şuşanın işğaldan azad edilməsindən sonra başlanan bərpa-quruculuq işləri ilə tanış olublar.

**LALƏ**

# Dohada Nizami Gəncəvinin 880 illiyi qeyd edilib






Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti Qətərə səfər edib.

Dekabrın 5-də Azərbaycanın Qətər Dövlətindəki Səfirliyi və Qətər Milli Kitabxanasının (QMK) birgə təşkilatçılığı ilə paytaxt Dohada Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə QMK-nin rəhbəri, Qətərin Baş nazirinin müavini rütbəsində dövlət naziri Həməd bin Əbdüləziz əl-Kavari, Azərbaycan mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və fəlsəfə doktoru, Fəlsəfə və Sosiologiya Akademiyasının təsisçisi Mail Yaqub çıxış ediblər.

Həməd əl-Kavari bildirib ki, iki ölkə arasında mədəniyyət sahəsində əlaqələr son dövrlərdə xeyli inkişaf edib. Dövlət naziri dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyini Qətərdə qeyd etməkdən məmnun olduqlarını ifadə edib, bu kimi mədəni tədbirlərin digər sahələrdə də ikitərəfli münasibətlərin inkişafı üçün körpü rolu oynadığını vurğulayıb.

Humanizm, gözəllik, sevgi, gender məsələləri və mehriban qonşuluq kimi mövzuların Nizami Gəncəvinin yaradıcılığında başlıca yer tutduğunu diqqətə çatdıran Elnur Əliyev qeyd edib ki, dahi mütəfəkkirin yaşadığı dövrdə dünyanın bir çox bölgələrində zorakılıq geniş yayılsa da, Nizami Gəncəvi yaradıcılığı sülh, ədalət, sevgi və şəxsi inkişaf kimi mövzuları tərənnüm edib. Nizaminin "Xəmsə"si regionumuzun hüdudlarından çox uzaqlara belə şöhrət taparaq dərindən araşdırılıb və bir çox şairlərin yaradıcılığında iz qoyub.

Nazirin birinci müavini dahi şairimizin 880 illik yubileyinin Qətərdə qeyd olunmasına görə təşəkkürünü ifadə edərək, gələcək illərdə mədəniyyət sahəsində birgə səylərin daha da gücləndiriləcəyinə ümidvar olduğunu bildirib.

Çıxışlardan sonra iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin inkişafına və Nizami irsinin tədqiqinə töhfə olaraq, Həməd əl-Kavari Nizami Gəncəvinin poemalarının Qətər Milli Kitabxanasında saxlanılan qədim əlyazmaları və miniatürlərinin elektron nüsxələri Elnur Əliyevə təqdim edib.

Tədbir zamanı həmçinin sözügedən əlyazmaların orijinal nüsxələri tədbir iştirakçıları üçün sərgilənib.

Daha sonra fəlsəfə doktoru Mail Yaqub Nizami Gəncəvi yaradıcılığında kamil insan və onun xüsusiyyətləri mövzusunda çıxış edib.

Qeyd edək ki, səfər çərçivəsində Elnur Əliyev Qətərin dövlət naziri Həməd bin Əbdüləziz əl-Kavari ilə görüş keçirib. Mədəniyyət nazirinin birinci müavini Qətər Milli Kitabxanasının fəaliyyəti ilə də tanış olub, yerli televiziyaya müsahibə verib.

## Azərbaycan-Qətər dostluq abidəsi

əvvəli səh. 1-də

Mərasimdən öncə Elnur Əliyev "Katara" Mədəniyyət Şəhərciyi Fondunun baş direktoru Xalid əl-Suleyti ilə görüşüb. Görüşdə mədəniyyət sahəsində ikitərəfli münasibətlərin inkişaf istiqamətləri müzakirə olunub. Elnur Əliyev baş direktora "Leyli və Məcnun" rəsm əsərini hədiyyə edib.

Açılış mərasiminə Azərbaycan mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, "Katara" Mədəniyyət Şəhərciyi Fondunun baş direktoru Xalid əl-Suleyti, Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov, bu ölkədə akkreditə olunmuş diplomatlar, yerli ictimaiyyət nümayəndələri, Azərbaycan icmasının üzvləri qatıldılar. Rəşad İsmayılov və Elnur Əliyev tədbirdə çıxış etdilər.

Bürüncdən hazırlanmış abidə bir tərəfində müasir Bakının gözoxşayan memarlıq incilərindən biri olan Heydər Əliyev Mərkəzi, digər tərəfində isə "Katara" mədəniyyət şəhərciyində yerləşən amfiteatrın təsvir olunduğu ağac formasındadır. Sənət əsərinin gövdəsinə həkk olunmuş aypara ornamenti Azərbaycan və Qətərin eyni İslam mədəniyyətinə mənsub olduğuna işarə edir. Heykəlin üzərindəki sferik obyekt iki ölkənin əsas təbii ehtiyatları olan neft və qazı simvollaşdırır.

Qeyd edək ki, "Katara" mədəniyyət şəhərciyi teatr və konsert zalları, sərgi mərkəzləri, musiqi akademiyası, incəsənət mərkəzləri, ticarət və ictimai iaşə obyektləri, eləcə də istirahət yerlərini əhatə edən məşhur turizm məkanıdır. Bu ilin sentyabrında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və "Katara" Mədəniyyət Şəhərciyi Fondu arasında anlaşma memorandumu imzalanıb.



## Mədəni əlaqələrin perspektivləri müzakirə olunub

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev dekabrın 6-da Qətər Dövlətinin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd Al Tani ilə görüşüb.

Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin inkişaf istiqamətləri və perspektivləri müzakirə edilib.

Elnur Əliyev Azərbaycanın tarixi, incəsənəti, zəngin ədəbiyyatı, musiqi mədəniyyəti, xalq sənətləri, xalçaçılıq məktəbləri və digər mövzular barədə həmsöhbətini ətraflı məlumatlandırıb, 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunduğunu qeyd edərək, dahi şair və mütəfəkkirin yaradıcılığından söhbət açıb.

Elnur Əliyev həmçinin 44 günlük Vətən müharibəsində əldə olunan şanlı Qələbədən danışaraq, ölkəmizin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyini izah edib, Azərbaycanın təkcə döyüş meydanında deyil, diplomatik cəbhədə də qələbə qazandığını qeyd edib. O, mədəniyyətin ölkələr və xalqlar arasında münasibətlər üçün körpü rolu oynadığını bildirərək, bu xüsusda mövcud potensialdan geniş istifadə edilməsinin əhəmiyyətini vurğulayıb.

Şeyx Əbdülrəhman bin Həməd Al Tani ölkələrimiz arasında ikitərəfli münasibətlərin və mədəni əlaqələrin mövcud səviyyəsindən məmnunluğunu ifadə edib, müştərək səylər vasitəsilə bu əməkdaşlığın daha da gücləndiriləcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə Azərbaycanın Qətər Dövlətindəki səfiri Rəşad İsmayılov da iştirak edib.

## Azərbaycan-Avropa Şurası əlaqələrində mədəni əməkdaşlığın mühüm yeri var

Mədəniyyət naziri Anar Kərimov dekabrın 1-də Avropa Şurasının (AŞ) Bakıdakı Ofisinin rəhbəri, səfir Zoltan Hernyes ilə görüşüb.




Səfiri salamlayan nazir Azərbaycanla Avropa Şurası arasında mədəniyyət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların olduğunu diqqətə çatdırıb.

AŞ ilə ölkəmiz arasında əlaqələrin əhəmiyyətini qeyd edən Anar Kərimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" təşəbbüsü əsasında 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində uğurlu əməkdaşlığı vurğulayıb.

Ölkəmizin irəli sürdüyü "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası haqqında söz açan Anar Kərimov bildirib ki, bu kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Nazir qlobal layihədə Avropa Şurasını da tərəfdaş təşkilat kimi görmək istədiyini deyib.

## Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın bir qrup üzvü ilə görüşüb.

İctimai şuranın sədri Gəray Əlibəyov, sədr müavini Şahin Qədirov, şura üzvü Samirə Mustafayeva mədəniyyət sahəsində müşahidə olunan müxtəlif məsələlər – uğurlar, problemlər və mədəniyyət işçilərinin, incəsənət xadimlərinin qayğıları, təşəbbüs və təklifləri ilə bağlı fikirlərini bölüşüblər.

Komitə sədri Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilərdən sonra ilk dəfə belə bir görüşün keçirildiyini, gələcəkdə belə fikir mübadilələrini müntəzəm şəkildə aparmağın faydalı olacağını bildirib. Şura üzvlərinə yaradıcılıqda və təşkilati fəaliyyətdə uğurlar arzulayan Q.Paşayeva yaxın vaxtda Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi və İctimai Şuranın iştirakı ilə birgə toplantı keçirməyi təklif edib.

Komitə sədri şura üzvlərinə Qarabağ motivli xatirə hədiyyəsi bağışlayıb.

## Musiqili Teatrda "Nizami – 880" layihəsinin təqdimatı

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dahi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş layihənin – musiqili-xoreoqrafik kompozisiyanın təqdimatı keçirilib.




Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə keçirilən mərasimi teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev açaraq layihə barədə qonaqlara məlumat verib.

Sonra kompozisiya nümayiş olunub.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev "Nizami ili"nə həsr olunan musiqili-xoreoqrafik kompozisiyanı yüksək dəyərləndirib, teatr-kollektivinə yeni yaradıcılıq uğurları arzulayıb.

Xalq artistləri Cəmilə Bayramova, Sərxan Sərxan layihə ilə bağlı fikirlərini bölüşüblər. SSRİ Xalq artisti Müslüm Maqomayevin ifasında Üzeyir Hacıbəylinin "Sənsiz" romansının sədaları altında teatrın aktyorları və balet truppası üzvlərinin iştirakı ilə qurulan kompozisiyanın uğurlu alındığı vurğulanıb.

Qeyd edək ki, videoçarx formatında hazırlanan layihənin ideya müəllifi və bədii rəhbəri Əliqismət Lalayev, rejissoru Cavid İmamverdiyev, baletmeysteri Xalq artisti Təranə Muradova, operatorları Kamal Məmmədov, Murad Həsənov, montajçısı Fuad Təhməzovdur. Layihənin xoreoqrafı Əməkdar artist Emin Əliyev, həmçinin kompozisiyada Nizami Gəncəvinin obrazını yaradıb.

## Gəncədə muğam müsabiqəsi keçirilir

Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin təşəbbüsü və F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının təşkilatçılığı ilə Nizami yurdunda ilk dəfə muğam müsabiqəsi keçirilir.



"Nizami ili" çərçivəsində təşkil olunan müsabiqənin dekabrın 6-da 1-ci seçim turu gerçəkləşib.

Xalq artistləri Şahnaz Haşımova, Adil Bayramov, Əməkdar artist Mahir Məmmədov, xanəndələr Vaqif və Şahin Mirzəyevlər, Samux rayon Qarayeri qəsəbə Uşaq musiqi məktəbinin direktoru Təvəkkül Hüseynovdan ibarət münsiflər heyəti ifaları dəyərləndirib.

Müsabiqədə Gəncə şəhəri, Bərdə, Samux, Goranboy, Gədəbəy, Kəlbəcər və digər rayonlardan 50 nəfər muğam ifaçısı iştirak edib. İfaçılar "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər – Sahil Quliyev) musiqi qrupunun müşayiəti ilə öz məharətlərini göstəriblər.

**NURƏDDİN**

# "Muzey eksponatının hekayəsini sən danış"

### Nizami Gəncəvi mövzulu daha bir müsabiqə yekunlaşıb

Mədəniyyət Nazirliyinin "Muzey eksponatının hekayəsini sən danış" layihəsi üzrə növbəti müsabiqə "Nizami ili" çərçivəsində reallaşıb. Dekabrın 1-də Azərbaycan Milli İncəsənət Muzeyində müsabiqə qaliblərinin təltif olunma mərasimi keçirildi.



Qeyd edək ki, "Muzey eksponatının hekayəsini sən danış: Nizami Gəncəvi" mövzusunda hekayə müsabiqəsi Mədəniyyət Nazirliyinin bu layihə üzrə elan etdiyi ikinci yarışmadır. İlk müsabiqə 2020-ci ildə keçirilmişdi.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirdi ki, Nizami Gəncəvi "Xəmsə"ni yaratmaqla Şərq intibahının banisi olub. Onun ənənələri Şərqin dahi şairləri tərəfindən davam etdirilib. Nizami yaradıcılığı Qərb ədəbiyyatına da təsir edib. XIX əsrdə rus tədqiqatçıları Nizami irsini dərindən araşdırmağa başlayıblar.

Nazir müavini Nizami Gəncəvinin bu gün də bir müasirimiz kimi ədəbiyyat və mədəniyyətimizə öndərlik etdiyini, yüzillikləri keçib gələn bəşəri ideyaları ilə yolumuza işıq saçdığını dedi. Vurğuladı ki, dövlət başçısı tərəfindən elan edilən "Nizami Gəncəvi İli" bir sıra əlamətdar tədbirlərlə yadda qalıb. VII Bakı Beynəlxalq Kitab Sərgisi əlamətdar ilə həsr olundu. Sankt-Peterburqda, Ermitaj Muzeyində və Rusiya Milli Kitabxanasında dahi Azərbaycan şairinin yubileyinə həsr olunmuş tədbirlər keçirildi. Bakıda "Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü" mövzusunda beynəlxalq forum da əlamətdar ilin diqqətəlayiq tədbirlərindən oldu. Bu tədbirlərə olan böyük maraq göstərir ki, əsrlər keçsə də, Nizami irsi öz aktuallığını qoruyub saxlayır.

Müsabiqə haqqında məlumat verən Sevda Məmmədəliyeva bildirdi ki, əsas məqsəd insanlara yüksək mənəvi keyfiyyətlər aşılayan və maarifləndirici xüsusiyyətləri özündə əks etdirən Nizami Gəncəvi yaradıcılığının, o cümlədən "Xəmsə" motivli nadir eksponatların təbliğidir. Eyni zamanda layihə cəmiyyətdə muzeylərə marağın artırılması, yaradıcılıq fəaliyyətinin təşviqi və istedadlı müəlliflərin aşkara çıxarılması məqsədi daşıyır.

Nazir müavini qalibləri təbrik etdi və müsabiqənin bütün iştirakçılarına təşəkkürünü bildirdi.

Sonra qaliblərin adları elan olundu. Bildirildi ki, müsabiqəyə 50-dən çox iştirakçı öz əsərlərini təqdim edib. Onların arasından üç nəfər qalib seçilib. I yerə Nərgiz Həşimova ("Şəhid ilə Xarıbülbülün məhəbbəti"), II yerə Aişə Səfərova ("Bəhram şah yeddi gözəlin portretinə baxır"), III yerə isə Ömər Məmmədzadə ("Nakam sevginin xatirəsi") layiq görülüb.

Qalib müəlliflərə diplom və hədiyyələr təqdim edildi.

**L.AZƏRİ**

# Mədəniyyət mirası: ortaq keçmiş və ortaq gələcək

Dekabrın 3-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "Mədəniyyət mirası: ortaq keçmiş və ortaq gələcək" layihəsinin təqdimatı keçirildi. İstanbul Beynəlxalq Mədəniyyət Araşdırmaları Dərnəyi və Bakıdakı Yunus Əmrə İnstitutunun təşkil etdiyi layihə Türk-İslam sivilizasiyasının zəngin və seçkin nümunələrini dünyaya tanıtmaq məqsədi daşıyır.




Qonaqlar əvvəlcə BMM-in foyesində bəşəriyyətin ortaq mədəni mirasına həsr edilən sərgi ilə tanış olublar.

Tədbirin açılışında çıxış edən Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə bildirdi ki, mədəniyyət hər bir xalqın bioqrafiyasıdır. Mədəniyyət insanın həyatına və şüuruna bağlı olan anlayışdır: "Biz mədəniyyəti yalnız insan şüurundan ala bilərik. Bir az əvvəl mərkəzin foyesində təşkil olunan sərgini seyr etdiyimiz zaman bəşəriyyətin inkişaf tarixini gördük. Eyni zamanda mədəniyyətlərin inkişaf etdiyi mühitləri görə bildik. Tarixi, mədəniyyəti bilmədən gələcəyi yaratmaq mümkün deyil. İnsanlar öz kimliyini, dəyərlərini və tarixini, eləcə də dünyada var olmalarının səbəblərini bilməlidir. Onlar bu səbəbləri unutduqları zaman müharibələr baş verir".

Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" qlobal kampaniyası haqqında danışan Vasif Eyvazzadə dekabrın 2-də Bakıda bu kampaniyanın Tərəfdaşlıq Forumunun keçirildiyini diqqətə çatdırdı. Bildirdi ki, uzun illərdir beynəlxalq təşkilatlar sülh mədəniyyəti ideyasını inkişaf etdirirlər: "Ancaq Azərbaycan hökuməti 44 günlük Vətən müharibəsindən sonra mədəniyyəti inkişaf etdirmək üçün sülhün vacib olduğunu ideya kimi irəli sürdü. Bugünkü tədbirin təşkilatçıları "iki dövlət, bir millət" olan qardaş ölkələrin nümayəndələridir. İdeya da bu xalqın kökündə olan sülhpərvərlik və dünya mədəniyyətinə açıqlığı nümayiş etdirir".

Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıç layihənin ilk dəfə Azərbaycanda təqdim olunmasının əhəmiyyətini vurğuladı. Bildirdi ki, bu layihə ilə türk sivilizasiyasının zəngin və seçkin nümunələrini bütün dünyaya tanıtmaq və bu yolla özümüzü müasir dünyaya təqdim etmək niyyətindəyik.

Sonra proqram "Mədəniyyət şüuru" mövzusunda panellə davam etdi. Paneldə professor Bekir Karlığa, Türkiyə Böyük Millət Məclisinin üzvü, professor Celal Erbay və Beynəlxalq Mədəniyyət Araşdırmaları Dərnəyinin sədri Ahmet Selamet çıxış edərək fikir və düşüncələrini bölüşdülər.

Panel iclasdan sonra "Sivilizasiya alimi Biruni" sənədli filmi nümayiş etdirildi. Film Şərq dünyasının böyük təfəkkür sahibi, ensiklopediyaçı alim Əbu Reyhan əl-Biruninin (973-1048) həyat və fəaliyyətinə həsr olunub.

Bir il davam edəcək "Mədəniyyət mirası: ortaq keçmiş və ortaq gələcək" layihəsinin ölkəmizdən sonra Mərakeş, İran, Qazaxıstan, Özbəkistan, Rusiya və ABŞ-da təqdimatı keçiriləcək. Proqramın bağlanışının Fransanın paytaxtı Parisdə keçirilməsi planlaşdırılır.

**LALƏ**

# Tofiq Bakıxanovun yubileyi münasibətilə




Mədəniyyət Nazirliyi və Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə 1–8 tarixində görkəmli bəstəkar, Xalq artisti, professor, "Şöhrət" və "Şərəf" ordenli Tofiq Bakıxanovun 90 illik yubileyinə həsr olunmuş musiqi festivalı keçirilir.

Dekabrın 1-də festival çərçivəsində Azərbaycan Milli Kitabxanasında Tofiq Bakıxanovun nəşr olunmuş əsərlərindən ibarət sərgi açılıb.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov sənətkarın zəngin yaradıcılığı haqqında danışıb. Bildirib ki, Tofiq Bakıxanov əsərləri ilə Azərbaycan musiqisinə, incəsənətinə incilər bəxş edib. Onun "Nəva", "Humayun", "Rahab", "Şahnaz", "Dügah" simfonik muğamları, digər əsərləri musiqi mədəniyyətimizdə məxsusi yer tutur.

Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova deyib: "Bəstəkarlar İttifaqı olaraq biz fəxr edirik ki, belə bəstəkarlarımız var. Tofiq Bakıxanov operadan başqa bütün janrlarda əsərlər yaradıb". Z.Qafarova görkəmli bəstəkarın yaradıcılığı haqqında yazılan ilk kitabın müəllifi olduğunu da iştirakçıların nəzərinə çatdırıb.

ABİ-nin məsul katibi, professor Cəmilə Həsənova bildirib ki, Tofiq Bakıxanov ulu babası Abbasqulu ağa Bakıxanovun yaradıcılığına da müraciət edərək romanslar bəstələyib.

Sonda bəstəkar yaradıcılıq yolundan bəhs edib və tədbirin təşkilinə görə minnətdarlığını bildirib.

Qeyd edək ki, Milli Kitabxananın əməkdaşları tərəfindən "Görkəmli bəstəkar Tofiq Bakıxanov" adlı virtual sərgi də hazırlanıb.

***

Dekabrın 4-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Tofiq Bakıxanovun 90 illik yubileyi münasibətilə bəstəkarın "Xəzər balladası" və "Xeyir və Şər" birpərdəli baletləri təqdim olunub.

Əvvəlcə ABİ-nin katibi, professor Zemfira Qafarova bəstəkarın yaradıcılıq yolu haqqında danışıb. Bildirib ki, bəstəkar 8 simfoniya, 5 simfonik muğam, 6 simfonik poema, müxtəlif musiqi alətləri üçün 25 konsert, 26 sonata, 3 birpərdəli balet, bəstəkar Nəriman Məmmədovla birlikdə qələmə aldığı 3 operetta, 100-dən artıq mahnının müəllifidir. O, ilk dəfə birpərdəli "Xəzər" balladasını bəstələyib.




Sonra "Xəzər balladası" və "Xeyir və Şər" baletləri nümayiş olunub. Tamaşaçılar yubilyarı və ifaçıları gurultulu alqışlarla yola salıblar.

***

Dekabrın 6-da Kamera və Orqan Musiqisi Zalında Tofiq Bakıxanovun kamera əsərlərindən ibarət konsert keçirilib.

Konsertdə Azərbaycan Dövlət Fortepiano Triosu və Azərbaycan Dövlət Simli Kvarteti çıxış edib. Xalq artistləri Uran Seyidov, Soltan Məmmədova (violin), Əməkdar artistlər Töhfə Babayeva (violin), Səbinə İbrahimova (violonçel), Vaxtanq İmanov (viola), Aleksey Miltıx (violonçel), beynəlxalq müsabiqələr laureatı Fəridə Əhmədbəyova (piano) və başqalarının ifasında bəstəkarın əsərləri səslənib.

## AMEA Gəncə Bölməsində Nizamiyə həsr olunmuş elmi konfrans

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyəti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Gəncə Şəhər İcra Hakimiyyəti və AMEA Gəncə Bölməsinin təşkilatçılığı ilə "Nizami Gəncəvi İli"nə həsr edilmiş elmi-praktik konfrans keçirilib.

AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev elmi-praktik konfransı açıq elan edib.

Sonra AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli, M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və Avrasiya Yazıçılar Birliyinin sədri Yaqub Öməroğlu çıxış ediblər.

Ədəbiyyat İnstitutu Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçiləri Zəhra Allahverdiyeva, Təhminə Bədəlova və Yelena Teyer, İnstitutun şöbə müdiri Almaz Ülvi Binnətova, institutun elmi katibi Aygün Bağırlı, aparıcı elmi işçi Xuraman Hümmətova, Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin əməkdaşları Təranə Verdiyeva, Əlimuxtar Muxtarov və Xəyalə Hüseynovanın məruzələri dinlənilib.

# “Bu əsərlərlə Azərbaycan və Yaxın Şərq miniatür sənətinin baharı başlanır”

## “Vərqa və Gülşa” miniatürlər toplusunun təqdimatı keçirilib

*əvvəli səh. 1-də*

Təqdimat mərasimində çıxış edən mədəniyyət naziri Anar Kərimov dedi ki, Azərbaycan təsviri sənətinin maraqlı sahələrindən biri də miniatürdür. Miniatürlər sanki o dövrün kino mədəniyyətidir. Bu sənətin Orta əsrlərdə belə yüksək səviyyədə inkişaf etməsi fəxarət hissi doğurur. Gələcəkdə bu kitabın daha geniş təbliği diqqətdə saxlanılmalıdır.

Nazir diqqətə çatdırdı ki, 2020-ci il dekabrın 16-da Türkiyə, Azərbaycan, İran və Özbəkistanın birgə hazırladığı “Miniatür sənəti” nominasiya sənədi UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən belə bir qərarın qəbul edilməsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi, Mədəniyyət və Xarici İşlər nazirlikləri, Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyi və UNESCO üzrə Azərbaycan Milli Komissiyasının birgə fəaliyyəti nəticəsində mümkün olub. Anar Kərimov bildirdi ki, Mədəniyyət Nazirliyi “Nizami ili” çərçivəsində dahi şairin “Xəmsə”si əsasında hazırlanan miniatürlərdən ibarət kitabın nəşrini də həyata keçirəcək.

Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, millət vəkili, akademik Rafael Hüseynov vurğuladı ki, XIII yüzillikdə Orta Şərqdə miniatür sənətinin inkişafı başlayıb və bu inkişafın önündə gedənlərdən biri Azərbaycan olub. Əbdülmömin



Məhəmməd əl-Xoyinin XIII əsrdə çəkdiyi miniatürlər “Vərqa və Gülşa” əsərini bəzəyir və bununla da yalnız Azərbaycanın deyil, Yaxın və Orta Şərq miniatür sənətinin baharı başlanır.

Kitabın əhəmiyyətini qeyd edən akademik dedi: “Azərbaycan miniatür sənətinin dünyaya bəxş etdiyi bir çox incilərin toplandığı bu kitab hər bir azərbaycanlının, o cümlədən sənətşünasların sevimli nəşrləri sırasında olacaq. Kitab özü sənət əsəri kimi, poliqrafiyası, nəşr xüsusiyyətləri ilə diqqəti cəlb edir”.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Ərtegin Salamzadə bildirdi ki, miniatür sənəti Azərbaycan mədəniyyətinin incisidir: “Bu kitabın təqdimat mərasimi Azərbaycanın həm mədəni həyatında, həm də sənətşünaslıq elmində böyük hadisədir”.

Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev belə kitabların nəşr olunmasını mədəniyyətimizin səviyyəsinin göstəricisi olduğunu bildirdi.

Memarlar İttifaqının sədri Elbay Qasımzadə kitabın əhəmiyyətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, Çingiz Fərzəliyevin çoxsaylı layihə və təşəbbüsləri mədəniyyətimizin gələcək nəsillərə ötürülməsi və təbliği baxımından diqqətəlayiqdir.

Tbilisi Dövlət Muzeyinin direktoru İrina Koşoridze müəllifi təbrik edərək miniatür sənəti və Şərq ədəbiyyatı ilə bağlı düşüncələrini bölüşdü.

Sonda Çingiz Fərzəliyev təqdimata qatılan qonaqlara minnətdarlığını ifadə etdi.

**LALƏ**

# Abidələr, memorial və memarlıq kompleksləri hansı meyarlara cavab verməlidir?

## Ekspert komissiyasının yeni tərkibdə toplantısı

Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair Tədbirlər Planı”nın təsdiq edilməsi barədə sərəncamının (19 avqust 2009-cu il) icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən yaradılan Ekspert komissiyası fəaliyyət göstərir.

Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə komissiyanın heykəltəraşlıq abidələrinin, xatirə-memorial və memarlıq komplekslərinin ucaldılması və demontajı üzrə peşəkar mütəxəssislərdən ibarət yeni tərkibi təsdiq edilib. Dekabrın 3-də Azərbaycan Milli İncəsənət Muzeyində Ekspert komissiyasının yeni tərkibdə ilk görüşü keçirilib.

Görüşdə çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov bildirib ki, ucaldılan hər bir monumental əsər vətəndaşlarımızla yanaşı, ölkəmizə səfər edən xarici qonaqlar və turistlərdə də ölkəmiz haqqında fikir formalaşdırır. Bu səbəbdən ölkə ərazisində hər bir abidə onun bədii dəyəri, konsepsiyası, insanlarda yaratdığı təəssürat, gələcək nəsillər üçün əhəmiyyəti, aktuallığı nəzərə alınaraq ucaldılmalıdır.

Nazir qeyd edib ki, son zamanlar ölkə ərazisində ictimai və tarixi məkanlarda aidiyyəti qurumlarla razılaşdırılmadan müxtəlif abidə, heykəl, büst və barelyeflərin quraşdırılması hallarına təsadüf edilir. Estetik görünüşü və bədii konsepsiyası əksər hallarda yerləşdiyi ərazinin memarlıq görkəminə uyğun gəlməyən həmin abidələr isə ictimaiyyət tərəfindən birmənalı qarşılanmır. Odur ki, həm paytaxtda, həm də regionlarda razılaşdırılmamış abidələrin ucaldılmasının qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanlarına məlumatlar təqdim edilib.

Qeyd olunub ki, gələcəkdə ölkə ərazisində ucaldılması planlaşdırılan hər bir monumental abidənin ilkin layihə eskizinə dair müsabiqə elan ediləcək, təqdim edilən layihələrə nazirliyin nəzdində fəaliyyət göstərən Ekspert komissiyası tərəfindən baxış keçiriləcək, bədii və elmi cəhətdən qiymətləndiriləcək və daha sonra müvafiq işlərə başlanılacaq.

Ekspert komissiyasının üzvləri arasında gələcək fəaliyyət, iş prinsipi və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# “Yaradanlar” filmi təqdim olundu

Azərbaycanın müasir memarlığının banilərindən olan Mikayıl Hüseynov və Sadıq Dadaşovun həyat və yaradıcılığından bəhs edən “Yaradanlar” filmi dekabrın 3-də Nizami Kino Mərkəzində ictimaiyyətə təqdim olundu.

Memarlar İttifaqının təşəbbüsü, Mədəniyyət Nazirliyinin sifarişi ilə 2020-ci ildə “Salnaməfilm” studiyasında istehsal olunmuş filmin ideya müəllifi Elbay Qasımzadə, quruluşçu rejissoru Şamil Əliyev, ssenari müəllifi Natiq Rəsulzadə, təsvir rejissoru Rüfət Süleymanov, bəstəkarı Azər Hacıəsgərli, prodüseri Nazim Hüseynovdur.

Təqdimatda mədəniyyət və incəsənət xadimləri, Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov iştirak edirdi.

Azərbaycan Memarlar İttifaqı İdarə heyətinin sədri, professor Elbay Qasımzadə giriş sözündə ekran əsəri haqqında məlumat verdi. Qeyd etdi ki, çəkilişləri bir ilədək davam edən filmin ərsəyə gəlməsi heç də asan olmayıb. Hər iki memar haqqında o qədər də zəngin arxiv məlumatları olmasa da, belə bir maraqlı ekran əsəri çəkilib. Filmdə hər iki memarın təkcə yaradıcılıqları haqqında deyil, həyatları barədə də məlumatlar yer alıb.

Filmin ssenari müəllifi, Xalq yazıçısı Natiq Rəsulzadə bildirdi ki, ekran əsərində bədii film elementləri də var. Hər iki memarın məşəqqətli həyat keçirdiklərini vurğulayan Natiq Rəsulzadə qeyd etdi ki, çəkiliş zamanı incə detal və elementlər də nəzərə alınıb: “Gənc nəslin belə şəxsiyyətləri tanıması vacibdir. Yeni nəsillər görməlidir ki, mədəniyyət və memarlıq tariximizdə necə önəmli simalar olub”.





Rejissor Şamil Əliyev vurğuladı ki, film Memarlar İttifaqı ilə çəkilən ikinci ekran əsəridir: “Mikayıl Hüseynov və Sadıq Dadaşov Azərbaycan memarlığının görkəmli nümayəndələridir. Mən də bu şəxsiyyətlərə müraciət etməyi özümə borc bildim. Həmişə çalışıram ki, hər hansı bir filmi çəkəndə ona yenilik gətirim. Bu ekran əsəri də yeniliyi ilə fərqlənir. Sənədli filmdə ilk dəfə olaraq qum üzərində rəsmdən hadisələrin canlandırılmasında istifadə olunub”.

Çıxışlardan sonra Elbay Qasımzadə tərəfindən filmin yaradıcı heyətinə Memarlar İttifaqının diplomları təqdim olundu.

Sonda “Yaradanlar” sənədli filmi nümayiş etdirildi.

Filmdə görkəmli memarlar, akademiklər Mikayıl Hüseynov (1905-1992) və Sadıq Dadaşovun (1905-1946) həyat və yaradıcılığı fonunda XX əsrdə kommunist ideologiyasının Azərbaycan xalqının mədəni irsinə, əxlaqi-mənəvi dəyərlərinə vurduğu zərbə diqqətə çatdırılır. 1937-ci il repressiyasında onların qohumlarından olan ziyalıların əksəriyyəti məhv edilib. Eyni zamanda çox yaxın dost olan bu iki sənətkar ömürlərinin bir hissəsini qorxu və mənəvi sıxıntılarla yaşamağa məcbur olublar.

Filmdə o da vurğulanır ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ziyalıları rejimin təqiblərindən qoruyaraq onların yaşayıb-yaratması üçün qayğısını əsirgəməyib.

**Nurəddin MƏMMƏDLİ**

# “Can, Laçın”



Dekabrın 1-də Laçın rayonunun erməni işğalından azad edilməsinin birinci ildönümü tamam oldu. Bu münasibətlə Muzey Mərkəzinin sərgi qalereyasında Azərbaycan Rəssamlar İttifaqının üzvü Yusif Mirzənin “Can, Laçın” adlı fərdi sərgisi keçirildi.

Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi və Muzey Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə əvvəlcə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Şair-publisist Əkbər Qoşalı çıxış edərək rəssam Yusif Mirzə haqqında məlumat verdi. Bildirdi ki, Laçın rayonunun Sadınlar kəndində dünyaya göz açan sənətkar Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Qrafika fakültəsində təhsil alıb. O, yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğuldur. Sərgidə rəssamın qrafika və rəngkarlıq işlərindən “İlin fəsilləri”, “Nostalji”, “Müharibə siluetləri”, “Kəndimizdə axşam”, “Dağlarda bahar”, “Qəsəbə”, “Payız”, “Qaragöl” – ümumilikdə 70-ə yaxın əsəri nümayiş olunur.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva 44 günlük Vətən müharibəsindəki tarixi Qələbədən, cəsur Azərbaycan əsgərlərinin qəhrəmanlığından danışdı. Bildirdi ki, işğaldan sonra mənfur ermənilər Qarabağda daşı-daş üstə qoymayıblar, hətta qəbiristanlıqlar belə dağıdılıb. Vətən müharibəsində düşmən öz layiqli cəzasını aldı.

Qənirə Paşayeva sərgi və Laçının qurtuluşunun ildönümü münasibətilə rəssamı təbrik etdi, yaradıcılıq uğurları arzuladı.

Mədəniyyət Nazirliyi Muzeylər və daşınan mədəni irs sektorunun müdiri Altun Mikayıllı Ermənistanın işğalı zamanı tarixi yurd yerlərimizdə bütün infrastrukturun, eləcə də maddi mədəniyyət nümunələrinin dağıdıldığını bildirdi: “İnanırıq ki, dağıdılan şəhər və kəndlərimiz əvvəlkindən də gözəl tikiləcək. Vətənpərvər rəssam və heykəltəraşlarımız tərəfindən Qarabağda yeni-yeni sənət əsərləri yaradılacaq”.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, Türkiyənin Azərbaycandakı Səfirliyinin müşaviri general Nuri Öztürk, “Nəfəs” İctimai Birliyinin sədri Firəngiz Balakişiyeva rəssamı sərgi münasibətilə təbrik etdilər.

Yusif Mirzə çıxış edərək sərginin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi. Sonra tədbir iştirakçıları sərgi ilə tanış oldular.

Muzey Mərkəzində “Can, Laçın” sərgisi dekabrın 15-dək davam edəcək.

**Savalan FƏRƏCOV**

# “Azərbaycanın kəlağayısını çox sevirəm”



Tanınmış gürcü rəssam və sənətşünası Nino Kipşidzenin Milli Xalça Muzeyində təşkil olunan “Varlığın fraqmentləri” adlı sərgisi barədə xəbər vermişdik.

Sərginin açılış mərasimində rəssamla görüşüb qısa söhbət etdik. Nino Kipşidze ABŞ-da həkim ailəsində doğulub boya-başa çatsa da, hazırda əcdadlarının vətəni Gürcüstanda yaşayır. Amma etiraf edir ki, Amerika həyat tərzi yaradıcılığında dərin iz buraxıb. Sənətşünaslıq üzrə təhsil alıb və Gürcüstan Tekstil Qrupu Rəssamlar Assosiasiyasının üzvüdür. İndiyədək ənənəvi tekstil sənayesi layihələrdə iştirak edib. Əsərləri Gürcüstan, ABŞ və başqa ölkələrdə sərgilənib. Bir sıra əl işləri ABŞ-da şəxsi kolleksiyalarda və qalereyalarda saxlanılır. Rəssamın yaradıcılığı bir sıra ölkələrin sənətşünasları və sənət pərəstişkarları tərəfindən maraqla izlənilir.

– *Bakıda sərgi keçirilməsi ideyası necə yarandı?*

– Bu ideyanı Xalça Muzeyinin direktoru Şirin Məlikova illər əvvəl təklif etmişdi. Lakin hər dəfə bir problem yaranırdı və biz bu sərgini təqdim edə bilmirdik. Üç ildən sonra, nəhayət ki, işlərimi Bakıya gətirə bildik. Sərginin Xalça Muzeyində baş tutmasına sevinirəm və muzeyin binasını çox bəyəndim.

– *Sərgidə maraqlı işlər nümayiş olunur. Bu nümunələr əvvəlcədən eskiz əsasında hazırlanır, yoxsa necə?*

– Düzünü desəm, süjet iş prosesində yaranır. Əvvəlcədən heç nə düşünülmür. Müxtəlif parçaları birləşdirmək üçün kiçik iynələrdən istifadə edirəm. Fraqmentlərdə fərqli parçalardan istifadə edirəm. Köhnə nümunələr, şəxsi qarderobumdan əşyalardan da istifadə edirəm.

– *Kompozisiyalarınızda yapon, Çin, acar mövzularını, intibah dövrü, habelə modernizm və qotika üslubunun elementlərini görmək mümkündür...*

– Gördüyünüz bütün bu işlər Gürcüstanın təsviri və toxuculuq sənəti ənənələrində yaradılıb. Sizlərin burada müxtəliflik görməsi rəssam üçün çox xoş bir duyğudur. Sərgidə təqdim olunan ən böyük əsərlərdən biri Azərbaycana həsr olunub. Əsərdə kəlağayı parçaları var. Bu nümunə Şərqlə Qərbin vəhdətində olan İntibah obrazlarını izləyir.

– *Əsərlərinizə baxarkən onların heç də asan başa gəlmədiyini düşünmək olar...*

– Bəlkə də çoxları düşünür ki, aplikasiya yaratmaq texnikası çox mürəkkəbdir, amma əslində, öyrəndikdən sonra asan gəlir. Siz, sadəcə, müxtəlif parçalar kəsib onları vahid kompozisiyada birləşdirirsiniz. Gürcüstanda bu sənət növü geniş yayılıb. Keçmiş zamanlarda bu əl işi sənət nümunəsi kimi məşhur olub. İllər keçdikcə, bütün sahələrdə olduğu kimi, bu sahədə də oxşar tətbiqlər yaradılıb. Lakin, təəssüf ki, keçmiş nümunələrdən bu günə qədər gəlib çatanı çox azdır.

– *Azərbaycana həsr etdiyiniz əsəri neçə müddətə hazırlamaq mümkün olub?*

– Üç il əvvəl Azərbaycana həsr olunmuş əsərin üzərində işləməyə başladım. Aşqabadda yaşayan və köhnə toxuculuq parçaları toplayan rəfiqəm mənə Azərbaycan kəlağayısı hədiyyə etdi. Əsərin yaranmasına da elə bu hədiyyə səbəb oldu. Acarıstan ənənələrini, Avropa elementlərini və Şərq mövzularını birləşdirən aplikasiyadır. Tablo bayramda ailə üzvlərinin qovuşmasını təsvir edir. Bu, mənim böyük işlərimdən biridir. Ümumiyyətlə, mən sizin kəlağayınızı çox sevirəm. Bir neçə il əvvəl Azərbaycana səfərim zamanı hətta Şəkidə kəlağayı istehsal olunan fabrikdə oldum. Növbəti işlərim üçün Bakıdan sizin müxtəlif parçalardan almaq niyyətindəyəm.

– *Ölkəmiz haqqında təəssüratınız necədir?*

– Azərbaycana Gürcüstan Milli Muzeyinin direktoru, rəfiqəm və Bakıdakı sərgimin kuratoru İrina Koşoridze ilə gəlmişəm. Şəkidəki kəlağayı fabrikində gördüklərim məni heyran etmişdi. Ümumiyyətlə, Azərbaycanın ənənəvi sənətini çox bəyənirəm. Bakını çox sevirəm, çünki rəngarəng və açıq şəhərdir.

**Söhbətləşdi: L.AZƏRİ**

## Son nəfəsinədək döyüşdü...

Şəhidlik vətənpərvərliyin ən ali, ən yüksək məqamıdır. Belə ucalığa yüksəlmək, bu şərəfli adı daşımaq hər kəsə qismət olmur. Torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətənin igid oğullarından biri də baş leytenant Murad Yusif oğlu İbadovdur.



Murad İbadov 1993-cü il dekabrın 29-da Qobustan rayonunun Cəyirli kəndində anadan olub. A.Quliyev adına Cəyirli kənd tam orta məktəbində təhsil alıb. Kiçik yaşlarından Vətənə xidməti özünə hədəf seçən Murad arzuladığı peşəyə yiyələnmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə həmin məktəbi bitirərək N saylı hərbi hissədə zabit kimi xidmətə başlayıb. Həmin ilin Aprel döyüşlərində iştirak edərək böyük şücaət göstərib. Ölkəmizin ərazi bütövlüyünə qovuşduğumuz Vətən müharibəsinin ilk günlərindən Murad İbadov da döyüşə böyük ruh yüksəkliyi ilə qatılıb. O, qanlı döyüşlərdə həm öz əsgərlərinə nümunə olub, həm də onların çətin vəziyyətlərdən alnıaçıq çıxması üzün düzgün qərarlar verib.

Oktyabrın 16-na keçən gecə Ağdərə istiqamətində qızğın döyüşlər başlayır. Murad öz bölüyü ilə bir sıra strateji yüksəkliyi işğaldan azad edir. O, düşmən postuna daxil olaraq bir neçə düşməni məhv edir, özü isə yaralanır. Lakin qarşıya qoyulan tapşırığı tam yerinə yetirmək üçün döyüşü davam etdirir. Səhər saatlarında döyüş meydanında qəhrəmancasına şəhid olur.

Şəhidin anası Gülcahan İbadova deyir ki, torpaqlarımızın işğaldan azad olunması Muradın ən böyük arzusu olub: "Üç bacının bir qardaşı olan Murad fədakar, qayğıkeş, ailəcanlı idi. Kiçik yaşlarından böyükdən-kiçiyə hər kəsin hörmətini qazanmışdı. O, çoxlarına qismət olmayan şəhidlik zirvəsinə ucaldı. İndi bircə istəyim var: oğlumun şəhid olduğu yeri ziyarət edim...".

Şəhidin atası Yusif İbadov qeyd edir ki, Muradın uşaqlığından hərb sahəsinə böyük həvəsi vardı: "Sonuncu dəfə müharibədən bir neçə gün əvvəl evə gəlmişdi. Sanki geri qayıtmayacağını hiss edirmiş kimi bizimlə sağollaşdı. Bilməzdik ki, həmin gün Muradı son dəfə görürük...".

Murad İbadov noyabrın 22-də doğulduğu Cəyirli kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

## Əməkdar mədəniyyət işçisi Gülnar Əliyeva vəfat edib

"İçərişəhər" Muzey Mərkəzinin əməkdaşı, tanınmış muzeyşünas, Əməkdar mədəniyyət işçisi Gülnar Əliyeva dekabrın 2-də, ömrünün 77-ci ilində vəfat edib.



Gülnar Ələkbər qızı Əliyeva 29 avqust 1945-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət Universitetinin (BDU) Tarix fakültəsini bitirib. 1969-cu ildən 1994-cü ilədək "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi-Memarlıq Qoruq-Muzeyində fəaliyyət göstərib. Əmək fəaliyyətinə muzey baxıcısı kimi başlayıb, sonra bələdçi, kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışıb.

1994-cü ildən Azərbaycan Milli İncəsənət Muzeyində Ekspozisiya şöbəsinin müdiri işləyib, müxtəlif mövzulu ekspozisiya layihələrinə rəhbərlik edib. 2008-ci ildən təcrübəli muzeyşünas kimi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin "İçərişəhər" Tarixi Muzeyində elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunub.

Gülnar Əliyeva 30-dək məqalənin, bir çox ekspozisiyaların mövzu və tematik inkişaf planlarının müəllifi olub. 2014-cü ildə "Əməkdar mədəniyyət" işçisi adına layiq görülüb.

"İçərişəhər" Muzey Mərkəzinin kollektivi Gülnar Əliyevanın vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Musiqi Nizami "Xəmsə"sinin səhifələrində

Dekabrın 3-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Qara Qarayevin Ev-Muzeyində "Musiqi Nizami "Xəmsə"sinin səhifələrində" kitabının təqdimatı keçirildi. Kitabın müəllifləri Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Alla Bayramova və AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı Rauf Şeyxzamanlı, redaktoru filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Xəlil Yusiflidir.





Muzeyin direktoru Alla Bayramova tədbiri açaraq qeyd etdi ki, Nizaminin yaradıcılığına olan maraq təkcə onların bədii gözəlliyindən, tərənnüm edilən ilahi eşqdən, təbliğ olunan haqq-ədalətdən qaynaqlanmır: "Dahi şairin əsərlərinin önəmli xüsusiyyətlərindən biri də onlarda müxtəlif sənət növlərinin və elm sahələrinin birləşməsidir. Bu gün təqdim edilən kitab da bu məsələyə həsr olunub".

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, millət vəkili, akademik Rafael Hüseynov çıxışında dahi bəstəkarlar Üzeyir Hacıbəyli və Qara Qarayevin ev-muzeylərini müqəddəs ziyarətgah kimi səciyyələndirdi. O, Qara Qarayevi ilk dəfə 1966-cı ildə, 5-ci sinifdə oxuyarkən gördüyünü dedi: "Mən o zaman Kürdəmir rayonunda yaşayırdım. Qara Qarayev həmin dövrdə Ağsu-Kürdəmir dairəsindən SSRİ Ali Sovetinə deputat seçilirdi. Kürdəmirdə oxuduğum məktəbi ziyarətə gəlmişdi. Bizə də demişdilər ki, təbrik şeirləri oxuyacağıq. Adətən həmin şeirlər əvvəlcədən hazır olurdu. Ancaq həmin gün məktəbin direktorundan xahiş etdim ki, özüm yazdığım şeiri söyləyim. O da razı oldu.

*Əbülfəz oğlu Qara, o böyük sənətkara*
*Arzumuzdur şöhrəti ucalsın ulduzlara.*
*Musiqi məktəbləri başqa yerlərdə çoxdur,*
*Bizim Kürdəmirdəsə hələ biri də yoxdur.*
*Deputat bəstəkardan Kürdəmir nə istəyər,*
*Bir musiqi məktəbi hədiyyə etsə yetər…*

Bu şeiri deyib qurtardıqdan sonra hamı məni alqışladı. Daha sonra Qara Qarayev bir-bir şeirlər söyləyən məktəblilərə qələmlər hədiyyə etdi. Mənə çatanda qələm əvəzinə özünün məşhur şəklini verdi. O görüşdən bir il sonra Kürdəmirdə musiqi məktəbi açıldı".

"Musiqi Nizami "Xəmsə"sinin səhifələrində" kitabı haqqında təəssüratlarını bölüşən akademik söylədi ki, müxtəlif elmi araşdırmalarda Nizami Gəncəvinin həyat və yaradıcılığı çox tədqiq olunub. Lakin Alla Bayramova və Rauf Şeyxzamanlının kitabında Nizami poeziyası, Nizami yaradıcılığı, Nizami şəxsiyyəti məhz incəsənətlərin qarşılıqlı əlaqəsi nöqteyi-nəzərindən araşdırılıb. Yeni nəşrdə mütəfəkkir şair, həmçinin musiqi aləminin mahir bilicisi kimi təqdim edilib.

Azərbaycan Milli Konservatoriyasının professoru, sənətşünaslıq üzrə elmlər doktoru, musiqiçi Abbasqulu Nəcəfzadə kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Tədbirdə "Nizami və musiqi" beynəlxalq onlayn konfransının materiallar toplusunun da təqdimatı keçirildi. Bildirildi ki, bu ilin may ayında Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə dahi Azərbaycan şairinin 880 illiyinə həsr edilmiş "Nizami və musiqi" adlı beynəlxalq onlayn konfrans keçirilib. Konfransa ölkəmizlə yanaşı, Avstriya, Almaniya və Türkiyədən 30-a yaxın tədqiqatçı qatılıb, maraqlı məruzələr dinlənilib. Konfransdan sonra alim və mütəxəssislərin məruzələri toplu halında çap olunub.

Çıxışlardan sonra söz musiqiyə verildi.

Əməkdar artistlər İlham Nəzərov və Fəridə Məmmədovanın ifasında Ədilə Hüseynzadənin "Vəslin həvəsi", Əfrasiyab Bədəlbəylinin "Nizami" operasından "Rənanın ariyası", Sevda İbrahimovanın Nizaminin sözlərinə "Tez gəl" balladası və Gülnaz Abdullazadənin "Könlüm sitəminlə canə yetdi" əsərləri səsləndirildi. Solistləri beynəlxalq müsabiqələr laureatı Svetlana Əhmədova (piano) müşayiət edirdi.

**N.MƏMMƏDLİ**

# Muğam ifaçılığında məktəb yaradan sənətkar

Azərbaycan xanəndəlik sənətinin inkişafında müstəsna xidmətləri olan sənətkarlardan biri Cabbar Qaryağdıoğludur. Mədəniyyət paytaxtımız Şuşanın musiqi, sənət mühitində yetişən görkəmli xanəndənin sənətinin sorağı ölkəmizdən uzaqda da eşidilib. Ustad xanəndənin anadan olmasının 160 illiyi münasibətilə yada salaq.



Cabbar Qaryağdıoğlu (1861-1944) 13 yaşında muğam oxumağa başlayıb. Daha çox "Şüştər", "Kürd-Şahnaz" muğamlarının mahir ifaçısı kimi tanınıb.

Onu dünya şöhrətli vokal ifaçısı Fyodor Şalyapin də dinləyib, rus şairi Sergey Yesenin xanəndənin avazının sehrinə düşüb.

Xanəndə 1906-cı ildə Latviyanın Riqa şəhərinə dəvət olunur. İlk azərbaycanlı muğam ustası kimi səsi qrammofon valına yazılır. Daha sonra Kiyev, Moskva və Varşavanın səsyazma studiyalarından da dəvətlər alır. Muğam və xalq mahnılarımız onun məlahətli səsində lentə yazılır. Bununla da görkəmli sənətkar Rusiya Türkiyə, İran, eləcə də bir sıra Avropa ölkələrində tanınmağa başlayır.

C.Qaryağdıoğlu Azərbaycan muğam ifaçılığında yeni cığır açan sənətkarlardandır. O, bənzərsiz ifalarında M.P.Vaqif, Ş.İ.Xətai, X.Natəvan və digər şairlərimizin qəzəllərinə müraciət edib. Xanəndə, ümumiyyətlə, Şərqin musiqi mədəniyyətindən xəbərdar olub. Təsadüfi deyil ki, onu "Şərq musiqisinin parlaq ulduzu" adlandırırlar. Dəfələrlə İran şahlarının, Osmanlı sultanlarının məclislərində çıxış edib, Azərbaycan musiqisini yüksək səviyyədə təbliğ edib. Onun sənətkarlığı dövrün görkəmli sənətkarları Qəmər Mülük xanım, Əbülhəsən xan İqbal, Əsədulla xan və başqaları tərəfindən yüksək qiymətləndirilib. Böyük bəstəkar Fikrət Əmirov isə C.Qaryağdıoğlunu "xalq musiqisinin düşünən beyni" adlandırıb.

Görkəmli müğənni Bülbül xanəndənin səsini italiyalı Enriko Karuzonun səsi ilə müqayisə edib. Onun səsinin daha böyük imkanlara malik olduğunu deyib. Musiqişünas, Əməkdar incəsənət xadimi Firidun Şuşinski araşdırmasında yazır ki, C.Qaryağdıoğlunun xalq mahnısı kimi oxuduğu bir çox əsər sonralar bəstəkarlarımız tərəfindən nota salınıb. Bu əsərlər arasında sözü və bəstəsi C.Qaryağdıoğluna aid olan mahnılar çoxdur. Həmin əsərlərdən "İrəvanda xal qalmadı", "Nə baxırsan yarı-yarı", "Bu gələn yara bənzər", "Qarabağda bir dənəsən", "Qalada yatmış idim", "Tiflisin yolları", "Bülbüllər oxur", "Yeri, dam üstə yeri", "Naxçıvanın gədiyindən aşaydım" və s. nümunələri göstərmək olar.

C.Qaryağdıoğlu "Mənsuriyyə"ni, "Hisar"ı, "Müxalif"i fərqli və maraqlı şəkildə ifa edib. "Heyratı"nı marş adlandıran onu böyük bir coşqu ilə dinləyiciyə çatdırıb. "Kürdü-Şahnaz"ı, "Dəşti"ni, "Segah"ı isə lirik səpkidə oxuyub...

Sonrada ifaçılıq məktəbi formalaşan ustad sənətkarın davamçıları və özü səviyyəsinə yüksələn tələbələri – Seyid Şuşinski, Bülbül, Zülfi Adıgözəlov, Xan Şuşinski, Cahan Talışinskaya, Yavər Kələntərli, Mütəllim Mütəllimov və başqaları onun ənənəsini davam etdirib, bu ecazkar sənəti yaşadıblar.

**Savalan FƏRƏCOV**

## Kinorejissor və operator Rasim İsmayılovun 85 illiyinə həsr olunmuş sərgi

Azərbaycan Dövlət Film Fondunda Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, tanınmış kinorejissor və kinooperator Rasim İsmayılovun (1936–2004) anadan olmasının 85 illiyinə həsr olunmuş fotosərgi açılıb.



Dövlət Film Fondundan bildirilib ki, fotosərgidə görkəmli sənətkarın yaradıcılığını əks etdirən foto-lar nümayiş olunur.

Qeyd edək ki, Rasim İsmayılov "Gün keçdi", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Nəsimi", "Dədə Qoqud", "Babək" və s. filmlərinin quruluşçu operatoru olub. O, həmçinin "Asif, Vasif, Ağasif", "Şir evdən getdi", "İşgüzar səfər", "Sizi dünyalar qədər sevirdim" kimi bədii filmlərin quruluşçu rejissorudur.

# Qarabağda işğal zamanı talan edilmiş muzeylər

## Ermənistanın azərbaycanlılara məxsus irsi mənimsəməsi ilə bağlı hesabat hazırlanıb



Azərbaycanın işğaldan azad edilmiş ərazilərində otuz il düşmən tərəfindən 22 muzey dağıdılaraq talan edilib. Onlardan ən böyüyü Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi olub.

Bu barədə məlumatlar Mədəniyyət Nazirliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə hazırladığı "Ermənistanın azərbaycanlılara məxsus mədəni və tarixi irsi mənimsəməsi ilə bağlı hesabat"da əksini tapıb.

Hesabatda qeyd olunur ki, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində nadir ağac və bitki növlərinə aid nümunələr, mineral və daş nümunələri olan stendlər (Kəlbəcər bu baxımdan zəngin yataqlara malikdir), qədim sikkələrdən ibarət bənzərsiz kolleksiya və qədim qəbir daşlarından ibarət zəngin kolleksiya qorunub. Muzeydə ümumilikdə 13 min eksponat saxlanılıb.

Laçın rayonunda yerləşən Tarix və Diyarşünaslıq Muzeyi yerlə yeksan edilib və 5 min tarixi eksponat Ermənistana aparılıb. Muzeyin eksponatlarından olan gümüş əl çantası Londonda "Sotheby`s" auksionunda 80 min ABŞ dollarına satılıb.

Ağdam şəhərində 4 muzey olub. Onlardan ən unikalı Ağdam Çörək Muzeyi idi. Bu, Sovet İttifaqında yeganə, dünyada isə ikinci belə muzey olub. Muzeydə qədim əldəyirmanı, rəndə, qablar və digər məişət vasitələri ilə yanaşı, eramızdan əvvəl VII əsrə aid kömürləşmiş buğda dənələri qorunub. Bütün şəhərlə birlikdə bu muzey də dağıdılıb və talan edilib.

3 mindən çox eksponatın saxlanıldığı Qubadlı Tarix-Diyarşünaslıq Muzeyi və 6 mindən çox eksponatı olmuş Zəngilan Tarix-Diyarşünaslıq Muzeyi də işğal olunmuş ərazilərdə talan edilən muzeylər sırasındadır. Füzuli və Cəbrayıl rayonlarındakı tarix-diyarşünaslıq muzeyləri də erməni vandalizminin qurbanı olub.

Hesabatda qeyd olunur ki, Şuşa şəhərində 8 muzey dağıdılaraq yerlə yeksan edilib. Mədəniyyət abidələrinin dağıdılması və talan edilməsi ilə yanaşı, onların eksponatları müxtəlif ölkələrdə satışa çıxarılıb. Şuşa şəhəri işğal olunandan sonra şairə Xurşudbanu Natəvan, məşhur xanəndə Bülbül və dahi bəstəkar Üzeyir Hacıbəylinin bürünc büstlərinin metal kimi Gürcüstanda satılması planlaşdırılıb və Azərbaycan hökuməti buna mane olaraq büstləri geri alıb. Şuşa şəhərinin azad edilməsindən sonra bu abidələr doğma şəhərə qaytarılıb. Diqqətə çatdırılır ki, Qarabağda azərbaycanlılara məxsus mədəniyyət abidələrinin talan edilməsi və mənimsənilməsi işğalın son günlərinədək davam edib. 2020-ci il noyabrın 1-də Şuşa Xalça Muzeyindən qanunsuz olaraq çıxarılmış xalçaların 2021-ci il fevralın 15-də Yerevandakı Aleksandr Tamanyan adına Milli Memarlıq Muzey-İnstitutunda sərgisi açılıb. Ümumilikdə, muzeydən 160 xalça oğurlanıb, onlardan 71-i həmin sərgidə nümayiş olunub. Oğurlanmış ən qədim xalçanın 350 yaşı var.

## Bakıdakı katolik kilsəsində təmir işləri aparılıb

Bakı şəhərindəki Müqəddəs Məryəm katolik kilsəsində Heydər Əliyev Fondu tərəfindən aparılan cari təmir-bərpa işləri başa çatdırılıb.

Fondun yaydığı məlumatda bildirilir ki, kilsədəki bərpa işləri zamanı hidroizolyasiya təmin olunmaqla damörtüyü əsaslı təmir olunub.

Bakıda katolik kilsəsi 1912-ci ildə inşa edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra, 1934-cü ildə, bir çox dini abidələr kimi, bu kilsə də dağıdılmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin göstərişi ilə dini məbədə ehtiyac duyan katoliklər üçün yeni kilsənin inşa edilməsi məqsədilə ərazi ayrılmışdı. Müqəddəs Məryəm katolik kilsəsi 2008-ci ilin mart ayında istifadəyə verilib.

Heydər Əliyev Fondu və Azərbaycandakı katolik dini icması ("Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu) arasında əməkdaşlıqdan irəli gələrək Fond tərəfindən 2008-ci ildə katolik kilsənin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilib, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilib.

# Bəstəkar Azər Dadaşovun 75 illiyi qeyd olundu

Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) Üzeyir Hacıbəyli adına konsert salonunda Xalq artisti, bəstəkar Azər Dadaşovun 75 illik yubileyinə həsr olunmuş tədbir keçirildi.



ABİ-nin sədri, Xalq artisti Firəngiz Əlizadə çıxış edərək bəstəkarın yaradıcılığından söz açdı. Bildirdi ki, Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən olan Azər Dadaşov böyük musiqiçi Qara Qarayevin tələbəsi olub. Zəngin yaradıcılıq yolu keçən bəstəkar bu gün də maraqlı yaradıcılıq axtarışları ilə musiqimizin inkişafına və təbliğinə mühüm töhfələr verir. Azər Dadaşov 14 simfoniyanın, müxtəlif janrlarda maraqlı əsərin, o cümlədən 20-dən çox filmə yazılmış musiqinin müəllifidir. Əsərləri dünyanın bir sıra nüfuzlu orkestrləri tərəfindən ifa olunur.

Firəngiz Əlizadə çıxışının sonunda bəstəkarı yubileyi münasibətilə təbrik etdi, yeni yaradıcılıq uğurları arzuladı.

Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova "Azər Dadaşovun xor musiqisi" mövzusunda məruzə ilə çıxış etdi. Bildirdi ki, Azərbaycan bəstəkarlarının əsərlərində, əsasən də xor musiqisində xalqımızın qanlı keçmişi, milli faciələrimiz öz əksini tapıb. Azər Dadaşovun da yaradıcılığında vətənpərvərlik mövzusunda əsərlər geniş yer tutur. Onun "Ana yurd", "Bu Vətən ölə bilməz" kantata-andı bu baxımdan diqqətəlayiq nümunədir. Bəstəkarın yaradıcılığını yüksək qiymətləndirən Z.Qafarova müəllifin bütün əsərlərinin orijinallığını xüsusilə vurğuladı.

Tədbirdə daha sonra sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Musiqi Akademiyasının dosenti Minaxanım Babayeva "Azər Dadaşovun kamera-instrumental musiqisi", Nərgiz Qulamova "Azər Dadaşovun simfonik yaradıcılığına bir nəzər", Nuranə Zeynalova "Azər Dadaşovun fortepiano üçün "Lirik pyeslər" məcmuəsi" mövzusunda məruzələrlə çıxış etdilər.

Məruzələrdən sonra bəstəkarın "And yerimiz", "Qızıl dan", "Qarabağ bayatıları", "Ana torpaq", "Səninləyəm", "Ayrılarmı könül candan", "Bir millət, iki dövlət", piano üçün prelüd və fuqa, violençel və piano üçün "Xocalı ağrısı", solo qoboy üçün "Cıdır düzü", "Gilavar" və s. əsərləri səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

Sonda Azər Dadaşov çıxış edərək tədbirin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

**Savalan FƏRƏCOV**

# Vokalçının rənglər dünyası

Yaşlı nəsil sənətsevərlərin teatr səhnəsində çıxışlarına, radio və televiziyada duyğulandırıcı ifasına vurğunluğunu ifadə etdikləri Xalq artisti Mobil Əhmədovun (1931-2006) həm də rəssam olmasından zamanında yalnız onun yaxınları xəbərdar olublar. Onun çəkdiyi əsərlər bir neçə dəfə Gəncə rəssamlarının sərgilərində nümayiş olunsa da, tamaşaçılar istedadlı rəssam fırçası ilə ərsəyə gətirilmiş həmin lövhələrin məlahətli səsi ilə məşhur olan vokalçı-aktyor tərəfindən çəkildiyini ağıllarına gətirməyiblər. Amma Mobil Əhmədovun bizə yadigar qoyub getdiyi bədii irslə tanışlıq göstərir ki, belə yüksək bədii səviyyəyə malik olan əsərlər müəllifi sənətkar həm də tanınmış rəssam ola bilərmiş...



Elə 1948-ci ildə valideynləri rəngləri özünə həmdəm hesab edən Mobili Gəncədə iki il əvvəl fəaliyyətə başlayan Uşaq rəssamlıq məktəbinə aparanda da, oğullarının gözəl rəssam olacağına böyük ümid bəsləyirdilər. Burada təhsil aldığı dörd il ərzində əldə etdiyi uğurlar ixtisas müəllimləri Cabbar Sadıxov və Böyükbəy Əliyarbəylinin də onun gələcəyinə böyük ümidlə baxmalarını şərtləndirmişdi. Elə Mobilin uğurla imtahan verib məşhur "Ə.Əzimzadə məktəbi"nin tələbəsi adını qazanması da bunun ilk işartısı olmuşdu. Lakin 1953-1958-ci illərdə burada məşhur fırça ustaları B.Maratlı və H.Məmmədovdan dərs alan gənc rəssam elə tələbəlik illərində ciddi seçim qarşısında qalmalı olur. Hələ uşaq yaşlarından hamını həm də məlahətli səsi ilə heyran edən Mobil təsadüf nəticəsində Konservatoriyaya gedib çıxır və buranın müəllimləri, o cümlədən Bülbülün qarşısında səsinin ecazkarlığını nümayiş etdirir. Bu qəfil "tapıntı"ya sevinən müəllimlər onun həm də Konservatoriyada oxumasına (o vaxtlar belə hallara icazə verilirdi) qərar verir və adını tələbələr sırasına daxil edirlər. 1956-1961-ci illərdə Bülbüldən dərs alan Mobil Əhmədov sonra həyatını Musiqili Komediya Teatrı ilə bağlayır və çox tezliklə istedadlı aktyor-müğənni kimi tanınır. Buradakı səmərəli fəaliyyətinə görə əvvəlcə "Əməkdar artist" (1978), sonra isə "Xalq artisti" (2000) fəxri adlarına layiq görülür...





Biz isə bu yazıda onun rənglərlə yaratdığı gözəllik dünyasından, daha dəqiq desək, heç bir mükafata layiq görülmədiyi təsviri və dekorativ-tətbiqi sənət sahəsində ərsəyə gətirdiyi əsərlərindən söz açmaq istəyirik. Öncədən deyək ki, səsinin hesabına o, bir çox mükafatlara layiq görülsə də, nədənsə rənglərə sevgisi cavabsız qalmış, zamanında heç Rəssamlar İttifaqına üzv də qəbul olunmamışdı. Hələ tədris illərində öz istedadını birgə oxuduqları Gennadi Brijatyuk, Fikrət Bağırov, Kamil Ramazanov, Pavel Kuzmenko, Qulam Şükürüllahi və başqa istedadlı gənclərlə rəqabətdə təsdiqləsə də, bu sahədəki uğurları nı vaxtaşırı ictimailəşdirməməsi musiqiçinin kifayət qədər tanınmasına şübhəsiz ki, maneçilik törətmişdi. Amma onun bədii irsi ilə tanışlıq doğrudan da zamanında çox istedadlı bir yaradıcının diqqətdən kənarda qaldığını təsdiqləyir...

Qeyd etmək lazımdır ki, Mobil Əhmədovun maraq dairəsinin geniş olması, həm də əsərlərinin mövzu və janr baxımından bir-birindən fərqli olmasını şərtləndirmişdir. Onun rəngkarlıq, qrafika və dekorativ-tətbiqi sənət sahəsində ərsəyə gətirdiyi tablo və lövhələrdə hər bir yaradıcı üçün önəm kəsb edən ənənə və müasirliyin vəhdətini duymaq mümkündür. Özünün təbirincə desək, "çəkəndə oxumağı, oxuyanda çəkməyi" xoşlayan müğənninin əsərlərində miniatürlərdə müşahidə etdiyimiz nikbin-duyğulandırıcı bədii ovqat-ruh qabarıq görünməkdədir. Rəngkarlıq yaradıcılığında janr məhdudiyyəti duyulmasa da, onun daha çox portretə üstünlük verməsini söyləmək daha çox tanıdığı və ünsiyyətdə olduğu, daha dəqiq desək, yaxından ünsiyyətdə olduğu adamları obyekt seçən Mobil Əhmədov həm də tamaşaçıların müxtəlif peşəli və ovqatlı insanların daxili aləminə düşündürücü tutumda nüfuz etməyi bacardığına inandıra bilmişdir. Onun "Mənim anam", "Avtoportret", "Nəvəmin portreti", "Gənc qadının portreti", "Düşüncələr", "Gənclik", "Qırmızı paltarlı qadın" və s. portretlərində əldə olunan bədii bütövlüyün mayasında duyğulandırıcı kolorit və cəlbedici ifadə vasitələrinin durduğu birmənalıdır.

Müxtəlif ruhlu bu portretlərdə forma-biçim stilizəsinin nə qədər duyulan olmasına baxmayaraq, müşahidə olunan "bədii şişirtmə"nin həm də əsərin cəlbedici və gözoxşayan alınmasına güclü təsir göstərdiyini deməliyik. Müəllifin portret irsini başqalarından fərqləndirən bədii xüsusiyyətlərin ən başlıcasının onun rəng qatının yaranışında yaxı improvizələrindən uğurla istifadə edə bilməsidir.







Onun akvarellə çəkilmiş "Gənc qadının portreti" əsərində nümayiş etdirdiyi yaxı oynaqlığı yüksək professionallığın nümayişi olmaqla, sözün əsl mənasında, həsədaparıcı bədii ifadə tərzinin nümayişidir. Obrazın xarakterinin açımında önəmli rol oynayan belə "yaxı oyunu"ndan bacarıqla istifadənin portretlərin bədii tutumunun bütövlüyünü şərtləndirməsi də bütün əsərlərdə görünməkdədir...

Mobil Əhmədovun portret yaradıcılığında müşahidə etdiyimiz rəng təzadlarının da miniatür estetikasından qaynaqlandığını vurğulamaqla, bu cür rəng harmoniyasının ilk növbədə cəlbedici və ovqatyaradıcı olduğunu deməliyik. Odur ki, bütünlükdə, Mobil Əhmədov portretlərində rəssamın "tanınma nişanı"na çevrilən ekspressiyaya bələnmiş rəng təzadının həm də düşündürücü olduğunu qeyd etməliyik...

Müəllif portretlərdə ona yaxın olan insanları tamaşaçıya təqdim edibsə, mənzərələrində də bizi Gəncənin ürəkaçan tanış motivləri ilə qarşılaşdırmışdır. "Kəpəz", "İmamzadə", "Göygöl", "Qədim abidə", "Çinarlar" və s. mənzərələr bu qəbildəndir. Bu məkanlara sərgilənən baxışların fərqli-özünəməxsus olmasındandır ki, onlarda həmin yerlərin başqalarına bənzəməyən gözəllik çalarlarına bələndiyini görə bilirik. Belə estetik tutumda göldən təcrid olunmuş şəkildə təqdim edilmiş Kəpəz xüsusilə cəlbedici-qürurverici baxılır. Günün müxtəlif vaxtlarında görüntüyə gətirilən İmamzadə kompleksinin qədimiliyə bələnmiş ümumi görkəmində ifadə olunan möhtəşəmlik də duyulandır. Hər iki mənzərədə rənglərin gücündən bolluca istifadə edən müəllifin kətan səthini ovqatyaradıcı qaynağa çevirməsi də tabloların bədii tutumunu təşkil edən yaxıların axıcı ritmindən duyulmaqdadır...

Mobil Əhmədovun qrafik irsində əsas yeri dostluq şarjları və karikaturalar tutur. Mənzərə və portretləri kimi, bu janrın əsas qəhrəmanları da müəllifin yaxından tanıdığı sənət adamlarıdır. Ümumi sayı yüzə çatan bu şarjların arasında müəllimi – böyük vokalçı Bülbülün, bəstəkarlar Vasif Adıgözəlov və Rəşid Şəfeqin, yazıçı-dramaturq Seyfəddin Dağlının, aktyorlar Arif Quliyev və Ələsgər Məmmədoğlunun, rejissor Mərahim Fərzəlibəyov və Rafiq Atakişiyevin təsvirlərinə rast gəlmək mümkündür. Qara flamasterlə birnəfəsə çəkilmiş bu şarjlar ilk növbədə ifadə tərzinin özünəməxsusluğu ilə seçilir. Onlarda əldə olunmuş oxşarlıq həsədaparıcı inamlı və səciyyəvi xətlərlə gerçəkləşdiyindən qrafik nümunələr yüksək icra nümunəsi kimi qəbul olunurlar.

Mobil Əhmədovun qrafik irsində çoxlu sayda karikaturaların yer alması isə onun on ilə yaxın bir müddətdə respublikanın nüfuzlu satirik nəşri hesab olunan "Kirpi" jurnalı ilə əməkdaşlıq etməsinin nəticəsidir. Əlavə edək ki, incə yumor hissinə malik olan aktyor ətrafındakı cəmiyyətdə tuş gəldiyi nöqsanlara bigânə qalmayaraq, tez-tez onları bədiiləşdirərdi. Bu satirik rəsmlər oxucular tərəfindən rəğbətlə qarşılandığından, o, bir çox hallarda redaksiyanın təklif etdiyi aktual mövzulara da özünün satirik münasibətini bildirərdi...

Müasirləri Mobil Əhmədovun doğma yurda baş çəkdiyi vaxtlarda tez-tez üz tutduğu ünvanlardan birinin Gəncə Çini Qablar Zavodu olduğunu yaxşı xatırlayırlar. Onun bura hər gəlişi yeni bir dekorativ-tətbiqi sənət nümunəsinin yaranması ilə nəticələnərdi. Bu gün neçə-neçə tanışının mənzilini rəssamın hazırladığı dekorativ nimçələr, güldanlar və s. əşyalar bəzəyir. Bu bədii məişət əşyaları formabiçim aydınlığı və rəng lakonikliyi ilə diqqət çəkir, desək, yanılmarıq...

Görkəmli səhnə ustasının rənglər dünyasına bu qısa səyahətimiz göstərir ki, ərsəyə gətirilən sənət nümunələri danılmaz bədiiliyi ilə yanaşı, həm də tarixi əhəmiyyət daşıyır. Odur ki, onların bir qisminin C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində və yaxud Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin ekspozisiyasında nümayiş etdirilməsi sənətkarın xatirəsinə ehtiramın nümayişi olardı...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi 6–9 dekabr

### Azərbaycan

**6 dekabr 1940** – Əməkdar artist, teatr xadimi, dramaturq Mirmahmud Mirələkbər oğlu Kazımovski (1882-1940) vəfat edib. Kiçik pyes, vodevil və musiqili komediyalar yazıb. "Bakılılar" (1938), "Kəndlilər" (1939) filmlərində çəkilib.

**6 dekabr 2004** – Xalq artisti, tanınmış aktyor Muxtar Həsən oğlu Avşarov (15.2.1914 – 2004) vəfat edib. Gəncə Dram, Akademik Milli Dram teatrlarında çalışıb, filmlərdə çəkilib.

**6 dekabr 2006** – Görkəmli xanəndə, Xalq artisti Baba Mahmudoğlu (Mirzəyev; 7.11.1940 – 2006) dünyasını dəyişib. Opera tamaşalarında ("Leyli və Məcnun", "Aşıq Qərib", "Əsli və Kərəm" və s.) əsas partiyaları ifa edib.

**7 dekabr 1919** – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binasında (indiki AMEA-nın Əlyazmalar İnstitutu) İstiqlal Muzeyi açılıb. Muzeyin yaradıcıları sənətşünaslar Hüseyn Mirzəcamalov və Məhəmməd Ağayev idi.

**7 dekabr 1950** – Əməkdar mədəniyyət işçisi, instrumental ifaçı Həsənağa Bilal oğlu Sadıqov (1950 – 1.8.2018) Salyan şəhərində doğulub. "Mahirlər" ailə ansamblının yaradıcısı olub.

**7 dekabr 2010** – Əməkdar incəsənət xadimi, şair Ramiz Heydər (Məmmədov; 1933-2010) vəfat edib. Sözlərinə populyar mahnılar ("Ayrılma məndən", "Toy olsun, bayram olsun" və s.) mahnılar bəstələnib.

**8 dekabr 1901** – SSRİ Xalq artisti Mərziyyə Yusif qızı Davudova (1901 – 6.1.1962) Həştərxanda doğulub. 1920-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb, Azərbaycan teatrının inkişafına mühüm töhfələr verib. Filmlərdə çəkilib. Görkəmli aktyor və rejissor Abbas Mirzə Şərifzadənin həyat yoldaşıdır.

**8 dekabr 1909** – Xalq artisti Əjdər Əliabbas oğlu Sultanov (1909 – 10.1.1962) Bakıda doğulub. Akademik Opera və Balet, Türk İşçi teatrlarında çalışıb. 1939-cu ildən Akademik Dram teatrlarının aktyoru olub, kinoda ("Lətif", 1930) çəkilib.

**8 dekabr 1909** – Xalq artisti Nina Dmitriyevna Sarnatskaya (1909-1986) Bakıda doğulub. 1932-ci ildən Dövlət Rus Dram Teatrının aktrisası olub.

**8 dekabr 1914** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (1914-2001) Naxçıvanda anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**8 dekabr 1939** – Əməkdar artist, rejissor Rövşən Məmmədqulu oğlu Abdullayev (1939-1995) anadan olub. Sənədli televiziya filmləri çəkib.

**8 dekabr 1942** – Xalq artisti Elxan Ağahüseyn oğlu Ağahüseynov (1942 – 2.8.2009) Bakıda doğulub. Akademik Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə çəkilib.

**8 dekabr 1946** – Xalq artisti, Dövlət mükafatı laureatı Vladimir Nikolayeviç Pletnyov (1946 – 21.2.1988) Göyçayda doğulub. Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**9 dekabr 1918** – Əməkdar incəsənət xadimi, yazıçı, ədəbiyyatşünas Cəlal Cabbar oğlu Məmmədov (1918 – 4.2.1983) anadan olub. "Azərbaycan" jurnalının baş redaktoru işləyib. Rus ədəbiyyatından Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatından rus dilinə tərcümələr edib.

**9 dekabr 1963** – Rejissor, Əməkdar incəsənət xadimi Lətif Bəşir oğlu Səfərov (30.9.1920 – 1963) dünyasını dəyişib. "Bəxtiyar", "Qızmar günəş altında", "Leyli və Məcnun" filmlərinə quruluş verib.

**9 dekabr 1973** – Xalq artisti, Dövlət mükafatı laureatı Lütfəli Əmir oğlu Abdullayev (22.3.1914 – 1973) vəfat edib. Musiqili Komediya Teatrında fəaliyyət göstərib, filmlərdə yaddaqalan obrazlar yaradıb.

### Dünya

**6 dekabr 1841** – Fransız rəssamı, impressionizmin banilərindən biri Frederik Bazil (Jean Frederic Bazille; 1841–1870) anadan olub.

**7 dekabr 1889** – Fransız filosofu, ekzistensializmin tanınmış nümayəndəsi Qabriel-Onore Marsel (Gabriel Honore Marcel; 1889 – 8.10.1973) anadan olub.

**8 dekabr 1832** – Norveç yazıçısı, şair, dramaturq və publisist, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1903) Byornsterne Martinius Byornson (1832–1910) anadan olub.

**8 dekabr 1865** – Fin bəstəkarı Yan Sibelius (Johan Christian Julius Sibelius; 1865 – 20.9.1957) anadan olub.

**9 dekabr 1048** – Böyük türk (özbək) astronomu, coğrafiyaşünas, ensiklopediyaçı alim Əl-Biruni (Əbu Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni; 4.9.973 – 1048) vəfat edib.

**9 dekabr 1717** – Alman sənətşünası, antik incəsənət tədqiqatçısı, arxeologiya elminin banilərindən biri Yohann İoaxim Vinkelman (Johann Joachim Winckelmann; 1717–1768) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## "Yeddi gözəl" poemasında mif, folklor və təsəvvüf"

İstər Azərbaycan, istərsə də dünya elmində Nizami Gəncəvinin yaradıcılığı müxtəlif aspektlərdən öyrənilir. AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Seyfəddin Rzasoyun yeni işıq üzü görən "Nizaminin "Yeddi gözəl" poemasında mif, folklor və təsəvvüf" monoqrafiyası da dahi şairin irsinə milli-filoloji marağın daha bir ifadəsidir.

Monoqrafiyada "Yeddi gözəl" poeması bədii-estetik işarə kimi götürülüb və əsərin Azərbaycan milli düşüncə sisteminin bədii-estetik layındakı yeri tədqiq edilib. Tədqiqat əsərində Nizami poeziyası "Yeddi gözəl" məsnəvisi əsasında Orta əsrlər dünya modeli, onun folklor-mifoloji strukturu baxımından araşdırılıb.

Nəşrdə şüurun inkişaf mərhələləri (mifoloji və tarixi şüur modelləri), "Yeddi gözəl" poemasının əsas süjetinin folklor-mifoloji semantikası, makrokosmun ("böyük dünya") mifopoetik strukturu və funksional semantikası, poemadakı həşiyə nağıl süjetlərində sufi dünya modellərinin təriqət praktikasının və mifoloji arxetiplərin təcəssümü, mikrokosmun ("kiçik dünya"//insan) mənəvi təkamül prosesinin semiotik strukturu, irfani-psixoloji və təsəvvüfi-poetik semantikası kimi məsələlər öyrənilib.

"Elm və təhsil" nəşriyyatında çap olunan monoqrafiyanın elmi redaktoru akademik Muxtar Kazımoğludur.

## İşgüzar və akademik kommunikasiya

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədlinin "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" kitabı çap olunub.

Kitabın elmi redaktoru akademik Nizami Cəfərov, məsləhətçisi akademik Möhsün Nağısoyludur.

Nəşrin birinci fəsli "İşgüzar kommunikasiya" adlanır. Bu fəsildə işgüzar kommunikasiyanın verbal və qeyri-verbal formaları, norma və prinsipləri, işgüzar ünsiyyətdə danışmaq və dinləmək bacarığı, onlayn işgüzar kommunikasiya araşdırılıb.

"Akademik kommunikasiya" adlı ikinci fəsildə şifahi və yazılı akademik kommunikasiya, akademik yazı qaydaları, tələbələrdə tədqiqatçılıq qabiliyyətinin formalaşdırılması məsələləri təhlil edilib.

Üçüncü fəsil "İşgüzar və akademik kommunikasiyada nitq mədəniyyəti. Punktuasiya problemi" adlanır. Bu fəsildə mədəniyyət anlayışı, nitq mədəniyyəti konsepsiyası, norma və variantlılıq, durğu işarələri haqqında geniş məlumat əksini tapıb.

Dördüncü fəsildə Azərbaycan dilinin funksional üslublarının dildəki funksiyasından bəhs edilir.

# Şuşa Mərkəzi Kitabxanası Daşkənddəki "Turan" Kitabxanası ilə əməkdaşlıq edəcək



əvvəli səh. 1-də

Azərbaycan Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli iki ölkə arasında mədəni əlaqələrin inkişafı, Türk dünyası arasında əməkdaşlığın genişləndirilməsi haqqında danışıb. Şöbə müdiri kitabxanalar arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

AMM-in direktoru Samir Abbasov yeni sənədin kitabxana sahəsində əməkdaşlıqda əlavə imkanlar yaradacağına əminliyini ifadə edib.

Özbəkistan Ali Məclisinin deputatı Gülbahar Saidqaniyeva, Özbəkistan Yazıçılar İttifaqının katibi Qayrat Məcid ölkələrimizin tarixi dostluğu və yüksək səviyyəli əməkdaşlığından məmnunluqlarını dilə gətiriblər.

Çıxışlardan sonra memorandum imzalanıb. Sənədi "Turan" Kitabxana-İnformasiya Mərkəzinin direktoru Dildora Abduazizova və Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli imzalayıblar.

Mərasimin sonunda Azərbaycan-Özbəkistan dostluğuna həsr olunmuş "Qızıl körpü" sənədli filmi nümayiş etdirilib.

***

Qeyd edək ki, Daşkənddəki mədəniyyət və ədəbiyyat günləri çərçivəsində Özbəkistan Milli Elmlər Akademiyasının Əbu Reyhan Biruni adına Şərqşünaslıq İnstitutunda "Nizami Gəncəvi və Əlişir Nəvai əsərləri əlyazmalarda" adlı tədbir də təşkil olunub. Tədbirdə Özbəkistanın Xalq şairi Camal Kamal tərəfindən Nizami Gəncəvinin özbək dilinə tərcümə olunmuş "Xəmsə"sinin və ədəbiyyatşünas, tərcüməçi Ramiz Əskər tərəfindən Azərbaycan dilinə çevrilmiş Əlişir Nəvainin "Xəmsə"sinin təqdimatları keçirilib.

Azərbaycanın dahi şairi Nizami Gəncəvinin 880 illiyi və böyük özbək şairi Əlişir Nəvainin 580 illiyinə həsr edilən silsilə tədbirlərdən biri də Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində keçirilən "Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığı Türk dünyası poeziyasının qürur mənbəyi, dünya ədəbiyyatının zirvəsidir" adlı beynəlxalq konfrans olub.

Tədbiri universitetin Özbək ədəbiyyatı tarixi və folklor kafedrasının müdiri, professor Nurboy Jabborov açaraq Nizami və Nəvainin yaradıcılığı haqqında danışıb. Bildirib ki, iki dahi şairi 300 illik zaman ayırır. Nizami "Xəmsə"ni farsca yazsa da, əsərlərində türk dəyərləri, türk ruhu hakimdir.

Universitetin prorektoru Zeynobiddin Abduraşidov AMM-in təşəbbüsü ilə Özbəkistanda Nizaminin "Xəmsə"sinin özbək dilində çap olunmasını və Nəvainin "Xəmsə"sinin Azərbaycanda tərcümə edilərək nəşr olunmasını hər iki ölkənin mədəni həyatında mühüm hadisə adlandırıb.

AMM-in direktoru Samir Abbasov hər iki şairin yaradıcılığının dünya poeziyasının ən gözəl nümunələri olduğunu vurğulayıb.

Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli bildirib ki, iki xalqın dünya ədəbiyyatı tarixinə bəxş etdiyi şair və mütəfəkkirlər arasında Nizami Gəncəvinin və Əlişir Nəvainin müstəsna yeri var.

Daha sonra Azərbaycan Milli Məclisinin deputatı, akademik Nizami Cəfərov, Bakı Dövlət Universiteti Türkologiya kafedrasının müdiri, professor Ramiz Əskər çıxış ediblər.

AMEA Əlyazmalar İnstitutu Nizami Gəncəvi əlyazmalarının tədqiqi şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri Sayman Aruz, Ankara Milli Kitabxanasının şöbə müdiri, professor Niyazi Unver və Özbəkistan Milli Universitetinin professoru Niqina Şirmuxammedovanın məruzələri dinlənilib.



Sonda AMM tərəfindən Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinə Nizami və Nəvainin Azərbaycan və Türkiyə kitabxanalarında saxlanılan əlyazmalarının elektron nüsxələri hədiyyə edilib.

# "Rioda bir gecə"

## Beynəlxalq Muğam Mərkəzində Braziliya musiqisi axşamı



Dekabrın 5-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "Rioda bir gecə" adlı konsert proqramı təqdim edildi. Cənubi Amerika ab-havalı musiqi axşamı BMM-in dəstəyi, Mədəniyyət Nazirliyi və Braziliyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə gerçəkləşdi.

Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova çıxış edərək qonaqları salamladı. Qeyd etdi ki, Braziliya və Azərbaycan uzaq məsafələrdə yerləşsələr də, mədəniyyət baxımından yaxınlıqlar var: "Ölkələrimizin tarixi köklərə söykənən musiqisi var. Bu axşam həmin zənginliyin bir parçasını duyaraq zövq alacağıq".

Braziliyanın ölkəmizdəki səfiri Manuel Monteneqro konsertin təşkilatçılarına minnətdarlığını bildirdi. Vurğuladı ki, bu gün iki ölkənin musiqiçilərinin bir arada çıxışını izləyərək bir daha musiqinin dilinin olmadığına, sənətin millətləri birləşdirdiyinə şahid olacağıq. İncəsənət fərqli mədəniyyətlərin dialoqunu yaradır. Musiqiçilər bu dialoqun ən gözəl nümunələrini təqdim edirlər.

Daha sonra konsert proqramı təqdim edildi. Claudio Frankonun prodüserliyi ilə saksofon ifaçısı Edqar Duvivier və gitara ifaçısı Dami Andres Latın Amerikası ritmləri vasitəsilə kompozisiyalarla çıxış etdilər.

Gecənin xüsusi musiqili qonağı Əməkdar artist, tarzən Sahib Paşazadə, ifaçılar Diana Hacıyeva, Ruslan Hüseynov, Nicat Məmmədov, Əli Nəsib braziliyalı musiqiçilərlə fərqli janrları əhatə edən kompozisiyalar təqdim etdilər.

Konsert proqramı musiqisevərlər tərəfindən maraqla qarşılandı.

**Lalə AZƏRİ**

# Bazel şəhərində Nizami poeziyası və muğam

İsveçrənin Bazel şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "Azərbaycanın Dostları" Birliyinin sədri Arzu Əliyeva-Bodmerin təşkilatçılığı ilə gerçəkləşən tədbirdə nizamişünaslar, ölkəmizin İsveçrədəki səfirliyinin və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Niqqi Uilrixin moderatorluğu ilə aparılan gecədə qüdrətli söz ustadının əsərləri aktyorlar Anar Fərəcbəyli, Daniel Kaştura və Mari Luiza Ulrix, şairə Olimə Nəbiyevanın ifasında Azərbaycan, alman və fars dillərində səsləndirilib. Azərbaycanlı sənətçilər Rövşən Qurbanov (tar), Xəyyam Məmmədov (kamança), Firuz Səxavət (xanəndə) və Rəvanə Qurbanovanın (xanəndə) ifasında konsert proqramı alqışlarla qarşılanıb.

Bazel şəhərində Azərbaycan muğamına və milli rəqslərimizə həsr olunmuş konsert də keçirilib. Şəhərin "Gundeldingerfeld" məkanında baş tutan musiqi axşamında tarzən Rövşən Qurbanovun rəhbərlik etdiyi muğam qrupunun üzvləri və "Buta" rəqs dərnəyinin yetirmələri maraqlı repertuar təqdim ediblər. Xanəndələr Firuz Səxavətin və Rəvanə Qurbanovanın, "Buta" solistlərinin ifalarında muğam, təsnif və milli rəqslər tamaşaçılarda böyük maraq doğurub.

# Ukraynada Maqomayevin xatirəsinə həsr olunmuş müsabiqə başa çatıb




Ukraynanın Truskavets şəhərində Azərbaycanın dünya şöhrətli musiqiçisi Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş IV Beynəlxalq vokal mahnı müsabiqəsi keçirilib. Ukraynadakı səfirliyimiz, Diasporla İş üzrə Dövlət Komitəsi, "SOCAR Energy Ukrayna" şirkəti, Truskavets şəhər Meriyası və Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) birgə təşkilatçılığı ilə reallaşan müsabiqənin qalibləri müəyyənləşib.

Truskavets şəhərində dekabrın 2-dən başlanan müsabiqəyə müxtəlif ölkələrdən 14 gənc vokalçı qatılıb.

Müsabiqənin final mərhələsindən öncə mətbuat konfransı keçirilib. Mətbuat konfransında Müslüm Maqomayev adına AMM-in rəhbəri, Ukraynanın Xalq artisti Qurban Abbasov, şəhər meri Andrey Kulçinski, Azərbaycanın Ukraynadakı Səfirliyininin üçüncü katibi Təranə Sadıqova çıxış ediblər. Çıxışçılar dahi müğənninin xatirəsinə ithaf olunan müsabiqənin gənc istedadların üzə çıxmasında rolunu vurğulayıblar.

Sonra finalçıların ifaları dinlənilib. Səsi ilə münsiflər heyətini heyran edən azərbaycanlı gənc Urfan Cəfərov və ukraynalı gənc Darya Nazimçuk qalib elan edilib. İkinci yerə ukraynalılar Vladimir Morozov, Pavlenko Solomiya, üçüncü yerə Qazaxıstandan Yermak Berimjanov və Çindən Lyu Kuo layiq görülüblər.

Müsabiqəyə qatılanları təbrik edən Truskavets şəhərinin meri Andrey Kulçinski bildirib ki, Müslüm Maqomayev dünyanın mədəniyyət elçisidir. O, tək Azərbaycanda deyil, bütün dünyada sevilən sənətkardır. "Şəhərimiz ildə bir dəfə Müslüm Maqomayevin xatirəsini gənc istedadların üzə çıxması ilə yad edir və bu ənənəni davam etdirəcəyik", - deyə o əlavə edib.

Azərbaycan səfirliyinin üçüncü katibi Təranə Sadıqova, Müslüm Maqomayev adına AMM-in rəhbəri Qurban Abbasov və digər çıxış edənlər də qaliblərə təbriklərini çatdırıblar.

Sonra 1-ci, 2-ci və 3-cü yeri qazanan gənc istedadlara diplom və pul mükafatları təqdim edilib. Mərasim qaliblərin konsert proqramı ilə yekunlaşıb.

# Heydər Əliyev Mərkəzində caz axşamı

## "Avişai Kohen trio"nun konserti

Dekabrın 6-da Heydər Əliyev Mərkəzində "Avişai Kohen trio"nun konserti keçirilib. Caz həvəskarlarını bir araya toplayan konsertdə Avişai Kohen (kontrabas), Elçin Şirinov (piano), Roni Kaspi (baraban) çıxış edib.



İsraildə doğulan, ABŞ-da fəaliyyət göstərən müğənni və bəstəkar Avişai Kohen son 20 ildə dünyanın ən yaxşı bas ifaçılarından biri kimi tanınsa da, ona daha çox yaratdığı musiqi əsərləri şöhrət qazandırıb.

"Avişai Kohen trio"nun Bakı konsertində yeni "Arvoles" albomundan kompozisiyalar təqdim edilib.

Avişai Kohenlə birlikdə səhnəni bölüşən azərbaycanlı pianoçu və bəstəkar Elçin Şirinov son 3 ildə onunla sıx əməkdaşlıq edir. Elçin Şirinov "Avişai Kohen trio"nun yeni albomunun yaranmasında fəal iştirak edib.

Trionun digər iştirakçısı isə İsraildə dünyaya gələn, hazırda ABŞ-da yaşayan baraban ifaçısı Roni Kaspidir.

# Türk dünyası və Avropanın mədəniyyət paytaxtları sərgilərlə tanıdılır

TÜRKSOY təşkilatı türk xalqlarının mədəniyyət və incəsənətini dünyada tanıdılması və təbliği ilə yanaşı, Avropa və Türk dünyası arasında mədəni körpü rolunu da oynamaqdadır. Qurumun təşəbbüsü ilə 2020-ci ilin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan Xivə (Özbəkistan) şəhərində 2020-ci il üzrə "Avropanın Mədəniyyət Paytaxtı" adına layiq görülən Rijeka (Xorvatiya) şəhəri tanıdılır.



Dekabrın 5-də TÜRKSOY-un Katibliyi və Rijeka Bələdiyyəsinin birgə əməkdaşlığı əsasında Xivədə "Avropanın Mədəniyyət Paytaxtı" adlı fotosərgi açılıb. Sərgi bu ilin aprel ayında Rijekada keçirilən "Xivədən təəssüratlar" adlı fotosərginin davamıdır.

Sərginin açılışında TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Özbəkistanın Mədəni İrs Agentliyinin baş direktoru Tursunali Koziyev, Xarəzm valisinin müavini Batır Səidov, Rijeka şəhərinin meri Marko Filipoviç, Xivə şəhərinin bələdiyyə sədri Timur Davletov və digər rəsmi şəxslər iştirak ediblər.



Açılış nitqi söyləyən D.Kaseinov öncə bu il müstəqilliklərinin 30-cu ildönümünü qeyd edən türk respublikalarını və Xorvatiyanı təbrik edib. Qeyd edib ki, TÜRKSOY "Türk Dünyasının Mədəniyyət Paytaxtı" layihəsi ilə türk xalqlarının yaşadığı geniş coğrafiyadakı qədim şəhərlərimizin dünyada tanıdılması üçün səylər göstərir: "Bu çərçivədə 2020-ci ildə Rijekada "Xivədən təəssüratlar" adlı fotosərgi təşkil etdik. Bu gün isə Adriatik dənizinin incisi olan Rijekanın gözəlliklərini Xivə sənətsevərlərinə təqdim edirik. Sərginin məqsədi eyni zamanda mədəniyyətlərarası yaxınlaşmaya töhfə verməkdir".

Baş katib onu da bildirib ki, "Türk Dünyasının Mədəniyyət Paytaxtı" və "Avropanın Mədəniyyət Paytaxtı" seçilən şəhərlər arasında qarşılıqlı əlaqənin artırılması istiqamətində səylər gələcəkdə də davam edəcək.

Çıxışlardan sonra sərgiyə baxış keçirilib. Xivənin tarixi İçan Kale kompleksindəki "Daş Avlu" sarayında açılan fotosərgidə Rijekanın tarixi və görməli yerləri əks olunub.

**Mehparə SULTANOVA**
**Ankara**

Mədəniyyət Nazirliyinin kollektivi Bakı Dövlət Sirkinin direktoru Elmir Hüseynova atası

**Vahid Tofiq oğlu Hüseynovun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2607
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.